Günəş Şərqdən doğur!

№ 63 (5344), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

13 aprel 2021-ci il (çərşənbə axşamı)



## Daha 1151 nəfər koronavirusa yoluxub

29 nəfər vəfat edib, 1052 nəfər müalicə olunaraq sağalıb

(Səh.9)

### Günün içindən...



## Brayza Ağdamdan görüntülər yaydı

"Ermənilər nasistlərin 1945-ci ildə Varşavanı dağıtdığı kimi Ağdamı viran qoyublar"

**"İndi Ağdam şəhərinin mərkəzindəyəm.** Gördüyünüz kimi, burada heç bir şey qalmayıb. Nasistlərin 1945-ci ildə Varşavada hər şeyi məhv etməsindən sonra olduğu kimi. Nifrətin nə dərəcədə olduğuna baxın. Ermənilər şəhəri bu qədər vəhşicəsinə dağıdıblar."

(səh.6)

## "Hər şey - Ağdam məscidi, muzey məhv edilib"

Ekspert: "BMT Ermənistanın törətdiyi hərbi cinayətləri diqqətə almalıdır"



"Bura ruhlar məkanıdır, ermənilər burada hər şeyi tamamilə məhv ediblər".

(səh.5)

# "Biz cavab istəyirik"



## Prezident: "Haradandır "İsgəndər-M" raketləri Ermənistan ordusunda? Bu, Ermənistanın hərbi cinayətinin sübutudur"

**Prezident, Ali Baş Komandan İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında mühüm açıqlamalar verib.**

Dövlət başçısı qeyd edib ki, ermənilər Şuşanı "İsgəndər-M" raketləri ilə atəşə tutublar: "Haradandır bu raketlər Ermənistan ordusunda? Bu raketlər olmamalı idi.

(səh.2)



# Müharibənin üç yanı var

Oda düşəni çıxarmaq çətin olacaq

(səh.8)

## Nobel prospektinə "8 Noyabr" adı verildi

(səh.4)

## Razılaşma Ermənistan tərəfindən pozulur

Ancaq ermənilər rus generalını günahkar çıxarmağa çalışırlar

(səh.5)

## Azərbaycanlı avtoritet Moskvada qətlə yetirilib

Müstəntiqlər Moskvada qətlə yetirilən Əli Heydərovun ölümü ilə bağlı iki versiya irəli sürüb

(səh.9)

## Yeni ofislər yaradıldı

Yararsız pul nişanlarını rahatca dəyişmək mümkün olacaq

(səh.13)





# "Biz cavab istəyirik"

## Prezident: "Haradandır "İsgəndər-M" raketləri Ermənistan ordusunda? Bu, Ermənistanın hərbi cinayətinin sübutudur"

Prezident, Ali Baş Komandan İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında mühüm açıqlamalar verib. Dövlət başçısı qeyd edib ki, ermənilər Şuşanı "İsgəndər-M" raketləri ilə atəşə tutublar: "Haradandır bu raketlər Ermənistan ordusunda? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur, Ermənistanın hərbi cinayətinin sübutudur və biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik, amma alacağıq. Hər kəs gəlsin görsün. Şuşanı, bizim qədim şəhərimizi Ermənistan "İsgəndər-M" raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı azad edəndən sonra bundan istifadə etdilər. Bizdə kifayət qədər məlumat var. Sadəcə olaraq, rəsmi açıqlama gözləyirik".





**"522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib"**

**Prezident vurğulayıb ki, Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər:** "Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb. Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı apardığı etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə çalışırdılar. Mif yaratmağa çalışırdılar ki, guya, Ermənistanın məğlubedilməz ordusu var, azərbaycanlılar isə şəxsi maşınlarını qoyub öz torpaqlarından çıxıblar. Biz bunu unutmamışıq və bu lövhə erməni fərariliyinin təzahürüdür. Çünki bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülüb. Müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın. Gün gələcək, biz bu nömrələri nümayiş etdirəcəyik. Və dekabrın 10-da keçirilmiş hərbi paradda bax, bu lövhə nümayiş etdirildi - Azadlıq meydanında. Bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi və bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir".

**"Bütün təzyiqlərə baxmayaraq, Qarabağ məsələsində bir faiz güzəştə getmədim"**

**Prezident vurğulayıb ki, düşmənin bütün cəhdlərinə baxmayaraq, hər hansı bir güzəşt edilmədi:** "Halbuki, təzyiqlər də olmuşdu, təhdidlər də. Mənə qarşı çevriliş cəhdləri edilmişdi. 2003-cü ildə hərbi çevriliş etmək istəmişdilər, alınmadı, xalq dəstəkləmədi. 2005-ci ildə Azərbaycanda "narıncı inqilab" təşkil etmək istədilər. Artıq başlarına narıncı bantlar bağlamışdılar. Narıncı çadırlar gətirilmişdi. Nə idi məqsəd? Məqsəd satqınları hakimiyyətə gətirmək, onların əli ilə Qarabağı ermənilərə vermək və Azərbaycana rəhbərlik etmək. Mən bunu qoymurdum. Ona görə bəzi xarici paytaxtlarda qərar verildi ki, İlham Əliyevi devirməliyik. O vaxt da "narıncı inqilab" dəbi var idi. 2003-cü ildə prezident seçiləndən sonra demişdim ki, artıq nə danışılıb, qalsın kənarda. Mən bunu tanımıram. Sıfırdan başlamalıyıq danışıqlara, sıfırdan. Bütün təzyiqlərə baxmayaraq, buna nail oldum. Məhz bunun nəticəsində "Madrid prinsipləri" ortalığa çıxdı. Bəli, "Madrid prinsipləri" bizi tam qane etmirdi. Mən bunu gizlətmirəm. Ancaq "Madrid prinsipləri"nin əsasında bizim torpaqlarımızın azad edilməsi nəzərdə tutulurdu. Mən dəfələrlə demişdim ki, heç vaxt ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb, olmayacaq və həyat bunu təsdiqlədi.



Mənim o vaxt danışıqların uğurla başa çatmasına inamım var idi. Çünki mən bu vəzifəyə təzə seçilmişdim, hələ böyük siyasətin, riyakarlığın nə dərəcədə geniş vüsət almasından xəbərsiz idim. Hesab edirdim ki, kim, hansı tərəf-müqabili nəyi deyirsə, o da həqiqətdir. Sonra anladım ki, bütün bu illər ərzində bizi aldatmağa çalışıblar".

**"İqtisadi müstəqillik əsas məsələlərdən biri idi"**

Dövlət başçısı qeyd edib ki, bütün nəqliyyat, kommunikasiya, enerji xətlərini elə çəkdik ki, Ermənistandan yan keçdi: "Mən nə qədər təzyiqlə üzləşdim - yox, bu xətt Ermənistan üzərindən keçməlidir, dəmir yolu Ermənistan üzərindən keçməlidir. Bakı-Tbilisi-Qars inşa edilməməlidir, biz buna kredit verməyəcəyik. Dedim, vermirsən, cəhənnəmə ver. Mən özüm Gürcüstana 725 milyon dollar kredit vermişəm. Nail olduq, bunu tikdik, Ermənistan dalana çevrildi. Bu, özlüyündə ona gətirib çıxardı ki, Ermənistandan kütləvi köç başlanmışdı. Köç olan kimi bazar daralır. Bazar daraldıqca, heç kim investisiya qoymur. Adam gərək dəli olsun ki, Ermənistana investisiya qoysun. Beləliklə, Ermənistanı iqtisadi cəhətdən çökdürmək əsas vəzifələrdən biri idi, mən bunu gizlətmirdim və buna nail olduq".

**"Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilmədi"**

**Ölkə başçısı qeyd edib ki, Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilmədi:** "Azərbaycan xalqının müharibə ilə bağlı geniş təsəvvürü var. Vaxt keçdikcə ayrı-ayrı əməliyyatlar haqqında da məlumat veriləcək. Ancaq 44 günlük Vətən müharibəsi bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdi. Göstərdi ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Biz düşməni hər gün qovurduq, hər gün. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində bir dəfə də geriyə addım atmamışdılar, halbuki, müharibələrdə hücumlar, geriyə dönmələr, manevrlər olur. Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilməmişdi. Ermənistan ordusunda 10 min fərari olub, özləri bunu etiraf ediblər. İndi onları əfv etmək istəyirlər. İndi 5 minini əfv etmək istəyirlər. Bəs, qalan 5 min? Yəqin ki, çıxıb gedib, artıq Ermənistanda yoxdur. Azərbaycan Ordusunda, Silahlı Qüvvələrimizdə bir nəfər də fərari olmamışdır. Yaralanmış hərbçilər, ağır yaralanmış hərbçilər bir amalla yaşayırdılar ki, tezliklə sağalıb yenə də döyüşə qayıtsınlar. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti yüksək mənəvi ruh göstərmişdir, peşəkarlıq, qəhrəmanlıq öz yerində, mənəvi ruh. Onlar bizi görəndə qabağımızdan qaçırdılar, biz onları hər gün qovurduq". Ali Baş Komandan qeyd edib ki, bütün əməliyyatlar düşünülmüş şəkildə aparılıb: "Əlbəttə, bəzi yerlərdə yubanmalar oldu, bəzi yerlərdə daha da tez, yaxud da ki, daha da böyük həcmdə əməliyyat aparıla bilərdi. Ancaq bu, müharibədir, onu planlaşdırmaq mümkün deyil. Hər gün bizim hərbçilərimiz öz həyatını risk altına atırdılar. Çünki o istehkamları, o müdafiə xətlərini keçmək həm peşəkarlıq, güc və həm də cəsarət tələb edirdi. Bizim aslanlarımız ölümə gedirdilər. Çünki onların işi haqq işi idi, onlar öz torpaqları uğrunda vuruşurdular. Erməni əsgərinin bizim torpağımızda nə işi var?".

**"Ermənistan bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir"**

**Dövlət başçısı vurğulayıb ki, Ermənistan bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir:** "Onların törətdikləri vəhşilikləri görəndə adam dəhşətə gəlir. Bütün şəhərlərimiz dağıdılıb, məscidlər dağıdılıb. Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bu, vəhşilik deyil, nədir? Vəhşi, hələ bəlkə də vəhşi o qədər də ağır söz deyil. Bütün dünya gördü ki, onların əsas ideoloji amili nə idi. Guya onlar burada azlıqda yaşayan mədəni, böyük sivilizasiyaya aid olan bir xalqdır, ətrafında da vəhşi müsəlmanlar bunları əhatə edir. Avropanın hər bir tinində bunu deyirdilər. Rusiyanın hər bir tinində bunu deyirdilər ki, bizə kömək edin, yoxsa bizi burada boğarlar. İndi hər kəs gördü bunun sivilizasiyası nədir, bunun mədəniyyəti nədir, bunun əxlaqı, mənəviyyatı nədir?! Qəbirləri dağıdan, şumlayan, ölülərin qızıl dişlərini çıxaran, məsciddə donuz saxlayan vəhşidir, başqa adı yoxdur. Bütün dünya bunu görüb və daha da çox görəcək".

**İsmayıl**

# Prezidentin çıxışı hər kəsə bir mesajdır

““İskəndər-M”lə bağlı biz rəsmi açıqlama istəyirik və onu alacağıq”



Dünən Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər parkının açılışında iştirak edən zaman Şuşaya atılan raketlərlə bağlı da danışıb: "Şuşanı ermənilər bu "İskəndər-M" raketləri ilə atəşə tutmuşdular. Ermənistan ordusunda bu raketlər haradandır? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur. Ermənistanın hərbi cinayətinin sübutudur".

”Biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan ”İskəndər-M” raketləri ilə məhv etməyə çalışırdı.

Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər. Bizdə kifayət qədər məlumat var. Sadəcə olaraq biz rəsmi açıqlama gözləyirik. Hər kəs gəlib bunu görəcək. Erməni vəhşiliyinin, hərbi cinayətinin növbəti əyani sübutudur”. - deyə, prezident əlavə edib.

**Millət vəkili Elman Məmmədov ”Şərq”ə açıqlamasında bildirdi ki, dövlət başçınının bu çıxışı bəziləri üçün mesajdır:** ”Əlbəttə, dövlət rəhbərliyinin hər şeydən xəbəri var. Sadəcə vurğulandığı kimi, biz rəsmi açıqlama istəyirik və onu alacağıq. Çünki diplomatik etikanı pozmaq niyyətimiz yoxdur. Sülhməramlı missiyasını yerinə yetirən, bu öhdəliyi üzərinə götürən dövlət, hamının nifrətini qazanmış ATƏT-in Minsk qrupunun digər üzvləri bu xəbərdarlıqlardan nəticə çıxarmalı, riyakarlıqdan əl çəkməlidirlər. Başa düşməlidirlər ki, əməkdaşlıqda, qonşuluqda səmimi olmaq lazımdır”.

**Deputat, həmçinin mübahisəli məqamla bağlı öz versiyasını da bildirdi:**

”Hələ müharibədən əvvəl müxtəlif ölkələrin ərazisindən keçməklə Ermənistana hərbi silah-sursat göndərilirdi. İstisna etmirəm ki, ”İskəndər-M” də həmin yüklərin arasında olub. Çünki belə silahlar adətən hissə-hissə göndərilir.

Həmin vaxtlar Ermənistan rəsmilərinin, o cümlədən baş nazir Nikol Paşinyanın, müdafiə nazirinin açıqlamaları da onların nəyəsə arxayın olduqlarını göstərirdi.

Məsələn, müdafiə naziri deyirdi ki, yeni ərazilər üçün yeni müharibəyə başlayacağıq. Bəli, işğalçılar savaşa başladılar. Nəticədə biabırçı formada uduzdular. Amma məğlubiyyətlərindən dərs almayıblar. Görünür, onlara sonuncu, daha öldürücü zərbəni vurmaq lazımdır.

Onu da deyim ki, məsələ ”İskəndər”in Ermənistanın əlin necə keçməsində deyil, məsələ Rusiyanın niyə onu başqa dövlətə satmasındadır. Çünki beynəlxalq qaydalara görə belə təhlükəli silahı satmaq olmaz”.

**Kənan Novruzov**

## Vitse-spiker "Şöhrət" ordeni ilə təltif edilib



**Prezident İlham Əliyev Fəzail İbrahimlinin ”Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Fəzail Feyruz oğlu İbrahimli ”Şöhrət” ordeni ilə təltif edilsin.

## Aleksandr Lukaşenko Azərbaycana gəlir

### Səfər iki gün davam edəcək



**Belarus prezidenti Aleksandr Lukaşenko aprelin 13-də Azərbaycana səfər edəcək.**

Trend-in Belarus KİV-ə istinadən məlumatına görə, bu barədə Belarus prezidentinin mətbuat xidməti bildirib.

Səfər iki gün davam edəcək. Səfər çərçivəsində A.Lukeşankonun ticari-iqtisadi əməkdaşlıq məsələlərini müzakirə edəcəyi planlaşdırılır.

## Litvanın XİN başçısı Azərbaycana səfər edəcək



**Litvanın xarici işlər naziri Qabrielyus Landsberqisin regiona səfəri nəzərdə turulub.**

”Report”un yerli bürosu xəbər verir ki, bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyindən (XİN) bildirilib.

Məlumata əsasən, çoxdan planlaşdırılan regional tur çərçivəsində XİN başçısı Gürcüstanla yanaşı, Azərbaycan və Ermənistana da səfər edəcək.

XİN-dən litvalı diplomatın Gürcüstana səfəri ilə bağlı hazırlıq işlərinin aparıldığı qeyd olunub.

## Kürdəmirin sabiq icra başçısının həbs müddəti 3 ay uzadılıb



**Binəqədi rayon Məhkəməsində Kürdəmirin sabiq icra başçısı Ceyhun Cəfərov barəsində seçilmiş həbs qətimkan tədbirinin uzadılması ilə bağlı təqdimata baxılıb.**

APA-nın məlumatına görə, keçirilən prosesdə qərar elan edilib.

Qərara əsasən, C. Cəfərovun barəsində həbs qətimkan tədbirinin müddəti 3 ay uzadılıb.

*Qeyd edək ki, C. Cəfərov Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən keçirilən əməliyyat nəticəsində saxlanılıb. O, Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən rüşvət alma), 311.3.2-ci (rüşvət alma - təkrar törədildikdə) və 311.3.3-cü (rüşvət alma - külli miqdarda törədildikdə) maddələri ilə ittiham olunur.*

# “Azərbaycanın türk dünyasına nümunə olacağına inanıram”

Türk jurnalist: “Biz dünyaya türk qardaşlığını, gücünü göstərəcəyik”



Azərbaycanın 44 günlük müharibədə qazandığı tarixi zəfər bütün dünyada əks-səda yaratdı. Əlbəttə, zəfər sevincimizi ən çox eşidənlər də məhz qardaş, dost dövlətlər, xüsusilə Türkiyə idi. Rəsmi Ankara savaş günlərində həyəcanlarımıza, çətinliklərimizə şərik olduğu kimi, qələbə zamanı bizi dövlət başçısı səviyyəsində təbrik etməyi də unutmadı.

Çünki düz 44 gün 83 milyonluq türk əhalisinin ürəyi Azərbaycanla, Qarabağla döyünürdü. Bunu onların bir çoxunun sosial media hesablarından da görmək olar.

**Türkiyəli jurnalist Mehmet Ali Kükrer tarixi zəfərimiz barədə fikirlərini ”Şərq”lə bölüşüb:**

”Peşə fəaliyyətim təkcə Azərbaycandakı deyil, bütünlüklə beynəlxalq aləmdəki prosesləri yaxından izləməyimi tələb edir. Bunu da texnologiyanın gətirdiyi ən böyük nemət olan internet vasitəsilə həyata keçirirdim. Sosial media hesablarım həmin işdə mənə çox yardımçı olurdu. Düzdür, bəzən Azərbaycan televiziyalarını da izləyirdim.

Lakin üstünlüyü sosial mediaya verirdim. Azərbaycan uşaqlıqdan bəri maraq göstərdiyim, lirik mahnılarını dinlədiyim məmləkətdir. Gəncliyim SSRİ-nin tərkibindən çıxacaq və Türkiyə ilə birləşəcək bir Azərbaycan arzusu ilə keçdi.

Bririnci Qarabağ müharibəsindən sonra Naxçıvan və Bakıda oldum. Burada mənim kimi düşünən, qardaş Azərbaycanı özünə ikinci vətən bilən milyonlarla insan var. Oradakı savaşı, qələbəni izləyib qürur duyduq. Bu dövrdə təkcə Türkiyə mediasını deyil, dediyim kimi, həm də Azərbaycan mətbuatını, televiziyalarını izləyirdim.

Qələbəmiz mənim üçün çox böyük xoşbəxtlikdir. 1996-cı ildə TRT kanalı məni Bakıya ezam etmişdi. Həmin vaxt qaçqınlarla görüşmüşdüm, onlar haqqında süjet hazırlamışdım və vətən həsrətlərini, sıxıntılarını, bir gün ata torpaqlarına qayıdacaqları ilə bağlı ümidlərini işıqlandırmışdım. İndi o vaxtkı həmsöhbətlərimizin hər birini təbrik edirəm. Müstəqil və güclü Azərbaycan məni qürurlandırır. Azərbaycanın türk dünyasına nümunə olacağına inanıram. Biz dünyaya türk qardaşlığını, gücünü göstərəcəyik”.

**Mehmet Ali Kükrer, həmçinin informasiya müharibəsi barədə də danışdı:**

”Əlbəttə, bütün Türkiyə, o cümlədən də yerli media baş verənləri həyəcanla izləyir və proseslərə həssaslıqla yanaşırdı. Savaş müxbirliyinin mənim peşə həyatımda çox mühüm yeri var. Jurnalist olaraq Naxçıvanda, Bosnada, Kosovoda gedən prosesləri, həmçinin PKK-ya qarşı əməliyyatları yaxından izləmişəm. Cəbhədə qızğın döyüşlər gedəndə biz informasiya cəbhəsində mübarizə aparırdıq. Xəbər adamısınızsa, xəbərin həqiqi, yoxsa saxta olduğunu onun veriliş tərzindən, mənbəyindən müəyyənləşdirə bilərsiniz. Fikrimcə, ortaq media platforması ləngimədən yaradılmalıdır. Mən bunun yalnız iki qardaş dövlət arasında olmasının əleyhinəyəm. Belə bir layihə bütün türk dövlətlərini birləşdirməlidir”.

**Kənan Novruzov**

# "Qənimətlərin içərisində mülki əhali ilə bağlı eksponat yoxdur"



## "Bütün bunlar dövlətimizin beynəlxalq hüquq və hərb qanunlara sadiq olduğunu göstərir"

Dünən Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib. Ölkə başçısı çıxışı zamanı mühüm məqamlara toxunub:

"Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb, işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir löhvə düzəltmişdilər ki, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıblar.

Əslində o hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər o lövhəni xarici turistlərə nümayiş etdirərək, öz ordusunun gücünü göstərməyə çalışırdılar, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu var, azərbaycanlılar isə öz şəxsi maşınlarını qoyub öz torpaqlarından çıxmışdılar. Biz bunu unutmamışıq.

"Bu lövhə isə erməni fərariliyinin təzahürüdür. Çünki bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya hərbi qənimət kimi götürülmüşdür.

Müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik.

Dekabrın 10-da keçirilmiş hərbi paradda bu löhvə nümayiş etdirildi, Azadlıq meydanında, bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi. Və bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir.

Burada sərgilənən yük maşınlarının nömrələri sadəcə götürülmüş texnikanın kiçik hissəsini təşkil edir". **Prezidentin çıxışını "Şərq"ə dəyərləndirən millət vəkili Ramil Həsən bildirib ki, ordumuz 44 günlük savaşda böyük qələbə çaldı. Parlament üzvünün sözlərinə görə, Ali Baş Komandanın iradəsi, misilsiz sərkərdəliyi və müzəffər əsgərlərimizin şücaəti ilə tariximizə böyük zəfər yazdıq:**

"Əlbəttə ki, müharibə qənimətsiz ötüşmür. Erməni vandalları və havadarlarının vətəndaşlarımıza etdiyi haqsızlıq və insan ləyaqətini alçaldan addımların qisası böyük fasilədən sonra alındı.

Hərbi qənimətlər əldə etdiyimiz qələbə kimi xüsusi yerə malikdir. Prezidentimiz də qeyd edir ki, biz düşmənin başına "dəmir yumruğ"umuzu vuraraq hərbi qənimətlər əldə etmişik.

Həmin lövhə də bilavasitə hərbi əməliyyatlar nəticəsində əldə edilmiş qənimətlərdən meydana gələn avtomobillərin seriyalarından ibarətdir.

Ona görə də böyük fəxr və qürur hissi ilə deyə bilərik ki, düşmənin başını əzmişik. Azərbaycan Ordusu Prezidentin başçılığı altında erməni vandallarına layiqli cavab verib. Çətin ki, düşmən bundan sonra özünə gələr".

*Deputatın fikrincə, böyük fəxrlə qeyd edə bilərik ki, ordumuz heç vaxt mülki əhalini hədəf almayıb və qənimətlər içərisində mülki əhali ilə bağlı olan eksponat yoxdur:* "Bütün bunlar dövlətimizin həm cəbhədə, həm danışıqlar masasında, həm də savaş meydanında beynəlxalq hüquq və hərb qanunlara sadiq olduğunu göstərir.

Ona görə də cənab Prezidentin tariximizin zəfər salnaməsini əks etdirən muzeydə hərbi qənimətlərlə bağlı çıxışı tamamilə reallıqları əks etdirir. Ali Baş Komandanın dedikləri dövlətimizin qüdrəti, zəfər yürüyüşündə əldə etdiyi uğurlu tarixi nailiyyətlərin təzahürüdür.

Əminik ki, Azərbaycan dövləti bundan sonra da cənab Prezidentin başçılığı ilə uğurlu addımlar atmağa davam edəcək".

**Yeganə Bayramova**



## Brayza Ağdamdan görüntülər yaydı

### "Ermənilər nasistlərin 1945-ci ildə Varşavanı dağıtdığı kimi Ağdamı viran qoyublar"

**"İndi Ağdam şəhərinin mərkəzindəyəm. Gördüyünüz kimi, burada heç bir şey qalmayıb. Nasistlərin 1945-ci ildə Varşavada hər şeyi məhv etməsindən sonra olduğu kimi. Nifrətin nə dərəcədə olduğuna baxın. Ermənilər şəhəri bu qədər vəhşicəsinə dağıdıblar."**

"Report" xəbər verir ki, bu fikirləri ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza dünən ADA Universiteti ilə birlikdə beynəlxalq analitiklər qrupunun tərkibində Ağdam rayonuna səfəri zamanı deyib.

**O, Ağdamın və onun görməli yerlərinin məruz qaldığı vəhşiliyin videogörüntülərini çəkib:** "Ağdamdakı məşhur Cümə məscidi çox gözəldir. Mənim üçün bu itirilənlərin, lakin eyni zamanda ümidin simvoludur. Çünki 10 noyabrda əldə edilmiş razılaşmalar sülhün bərqərar olması üçün sabit platforma yaradıb. Ümid edirəm ki, bir neçə il sonra azərbaycanlılar buraya qayıda biləcəklər, amma bunun üçün əvvəlcə bütün minaları zərərsizləşdirmək lazımdır. Ermənistan Azərbaycana minalı ərazilərin xəritələrini verməlidir".

O həmçinin məsciddən çıxan azərbaycanlı əsgəri də görüntüyə alıb: "Ağdamdakı məsciddən azərbaycanlı əsgərin çıxdığını görmək çox təsirlidir, bu, həyatın şəhərə necə qayıtdığını simvolizə edir, bu torpağa sülhün gələcəyinə bir vəd kimidir".

M.Brayza beynəlxalq analitiklər qrupu ilə birlikdə Ağdamdakı Qarabağ xanlarının sarayını da ziyarət edib və burada bu tarixi obyektin məruz qaldığı vəhşilikləri öz gözləri ilə görüb: "Son 30 ildə mal-qara tövləsi olaraq istifadə edilmiş xan məqbərəsi. Burada hələ də qoxu var", - o deyib.

"Səyahətimin sonunda isə Xocalı və Xankəndinə aparan yolun ümidlərlə dolu mənzərəsi durur", - M.Brayza deyir.

## Nobel prospektinə "8 Noyabr" adı verildi



**Nobel prospektinin adı dəyişdirilib. Prospektə "8 Noyabr" adı verilib.**

Qeyd edək ki, dünən ölkə başçısı Nobel prospektində yerləşən Hərbi Qənimətlər parkının açılışında iştirak edib. Gələcəkdə bu prospektdə "Zəfər" muzeyinin yaradılması planlaşdırılır.

*Xatırladaq ki, 8 Noyabr ölkədə Zəfər günü kimi qeyd olunacaq.*

## Daha 70-ə yaxın jurnalist vaksinasiya olundu

**Dünən 70-ə yaxın jurnalist vaksinasiya olunub.**

Bunu Trend-ə Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib.

Ə.Amaşov bildirib ki, ümumilikdə 130-a yaxın jurnalist vaksinasiya edilib: "Vaksinasiya prosesi həftə boyunca davam edəcək. Vaksinasiya üçün müraciət edən jurnalistlərin sayı artmaqdadır. Artıq 500-ə qədər jurnalist vaksinasiya olunmaq üçün müraciət edib. Vaksinasiya olunmaq istəyən bütün jurnalistlər vaksin olunana qədər bu prosesi davam etdirəcəyik".

# Düzgün anlaşılmayıb

## Prokurorların maaşlarının ikiqat artırılacağı xəbəri yanlışdır

**Azərbaycanda prokurorluq əməkdaşlarının aylıq gəlirlərinin kəskin artacağı gözlənilir. Bu, hazırda Milli Məclisdə baxılan "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında xidmət haqqında" qanunlara ediləcək dəyişikliklərdə nəzərdə tutulub.**



*Gözlənilən dəyişikliklə bağlı "Şərq"ə danışan "Konstitusiya" Araşdırmalar Fondunun sədri, hüquqşünas Əliməmməd Nuriyev qeyd edib ki, bu sahədə maaşların ikiqat artacağı barədə məlumatlar doğrunu əks etdirmir:* "Prokurorluq və prokurorluq orqanlarında xidmət haqqında" qanuna dəyişikliklər edilməsi ilə bağlı Milli Məclisə qanun layihəsi təqdim olunub. Bu da prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar olan məsələdir. Burada söhbət prokurorluq orqanları tərəfindən aparılan cinayət işləri ilə bağlı dəymiş ziyanın istintaq müddətində ödənilməsi üzrə həmin ziyanın 5 faizi qədər prokurorluğun maddi-texniki təminatının və prokurorluq işçilərinin sosial müdafiəsinə yönəlməsi üçün onların xəzinədarlıq hesabına köçürülməsindən bəhs edilir. Həmçinin, prokurorluq orqanları tərəfindən inzibati xətalara aid olan işlərlə əlaqədar tətbiq edilən cərimələrdən daxil olan vəsaitin 23 faizi xəzinədarlıq hesabına köçürülməsi nəzərdə tutulub. Bu dəyişikliklər prokurorluq əməkdaşlarının maaşlarının kəskin artırılmasından bəhs etmir. Əlbəttə, nəzərdə tutulan dəyişikliklər müəyyən qədər maaşlara təsir edəcək, lakin bu, deyilən qədər çox olmayacaq.

Prokurorluq işçilərinin fəaliyyəti çox ağır və mürəkkəbdir. Onların həyatları daim təhlükədədir. Həmçinin bu sahədə çalışanlar karantin rejimi, 44 günlük müharibə zamanı da gecə-gündüz demədən çalışdılar. Prokurorluq və hüquq-mühafizə işçilərinin əməkhaqqı elə bir həddə çatdırılmalıdır ki, onlar yalnız işin keyfiyyətli təmin olunmasını, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunmasına yönəlməlidir. Eyni zamanda bu, korrupsiyaya qarşı mübarizənin əsas istiqamətlərindən biridir".

**Aytac Ali**

# Razılaşma Ermənistan tərəfindən pozulur

## *Ancaq ermənilər rus generalını günahkar çıxarmağa çalışırlar*

Bir neçə gün əvvəl Ermənistan mediası "hərbi əsir" adlandırdıqları erməni terrorçuların qaytarılması ilə bağlı uydurma xəbərlər tirajlayaraq, mövzu ətrafında süni ajiotaj yaratmışdılar. Hətta xeyli sayda erməni terrorçuları qarşılamaq üçün aeroporta belə toplaşmışdı.



**"Muradovun nişangaha qoyulmasının digər mühüm səbəbi isə Rusiya-Azərbaycan münasibətlərinin pozulmasına yönəlmiş təşəbbüsdür"**

Düşmən mətbuatının yaydığı məlumatlara görə, Rusiya sülhməramlılarının rəhbəri general-leytenant Rüstəm Muradov, guya, "əsirləri" gətirmək məqsədi ilə Bakıya uçub. Lakin generalın Yerevana əliboş qayıtması erməniləri məyus etməklə yanaşı, həm də bərk hiddətləndirib. Daha sonra məsələyə reaksiya vermək məcburiyyətində qalan Rüstəm Muradov Ermənistan hakimiyyətini təxribatda ittiham edib: "Ermənilərin Bakıdan gətiriləcəyi barədə xəbərlər təxribat idi. "Əsirlərin" qaytarılması ilə bağlı heç nə planlaşdırılmamışdı və bu, Bakıya işgüzar səfər idi". Bu açıqlamadan sonra R.Muradov erməni rəsmilər tərəfindən təhdid edilməyə başlanıb. Ermənistanın Avan rayonu merinin müavini Nerses Poqosyan Rüstəm Muradovu ölümlə hədələyib. Poqosyan Muradova səslənərək onun ermənilər qarşısında mütləq cavab verəcəyini söyləyib: "Mənim əsgərlərimin qanı ilə oynadığın üçün sən öz həyatınla cavab verəcəksən, əqrəb kimi öləcəksən".

**Rus general ətrafında cərəyan edən prosesi "Şərq"ə təhlil edən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli bildirib ki, "Yerevana boş qayıdan təyyarə məsələsi" Azərbaycan, Rusiya və Ermənistan arasındakı razılaşmaya, üç ölkə arasındakı prosedura zərbə vurdu.** Analitikin sözlərinə görə, Paşinyanın Moskva səfəri, ardınca Putinin Azərbaycan dövlət başçısı İlham Əliyevə telefon zəngi, Rusiya Baş prokurorunun Bakıya səfəri bunu deməyə əsas verir: "Bəlkə hansısa razılaşma olub, amma Yerevan hakimiyyəti anlaşmanı pozub. Ola bilər, məhz bu səbəbdən Muradov Ermənistan hökumətini təxribatçılıqla suçladı. Ermənistan tərəfi razılaşmanı özləri pozsa da, rus generalını günahkar çıxartmağa çalışdı. Yerevanın daxili siyasi təzyiqlərə qarşı bu cür gedişlərə baş vurması labüddür. Azərbaycan tərəfi 10 noyabr razılaşmasının 4-cü bəndinin tam şəkildə icrasını tələb etmişdi. Ermənistan isə iddia edirdi ki, Azərbaycanın əlində təxminən 170 nəfər erməni var və onlar geri verilməlidir. Rəsmi Bakı isə ələ keçirilən ermənilərin "əsir" deyil, terrorçu olduqlarını dəfələrlə bəyan edib. Hazırda Rüstəm Muradovun hədəfə qoyulmasının səbəbi odur ki, Yerevandakı siyasi administrasiya ilə Qarabağdakı separatçılar arasında ciddi ziddiyyət və qarşıdurma mövcuddur. Paşinyanın Moskva səfərindən az sonra bütün uğursuzluqlar və Azərbaycana yönəlik narazılıqlar birbaşa Rusiyaya qarşı çevrilməyə başladı. Sirr deyil ki, bunun arxasında Qərbdəki məlum dairələr, SOROS dayanır. Yəni Qarabağdakı ermənilərin "administrativ" proseslərini Rusiya sülhməramlıları həyata keçirir. Ona görə də Yerevan hakimiyyəti ilə birbaşa rusların nəzarətində olan separatçılar tamamilə fərqli qüvvələr kimi çıxış edirlər. Muradovun nişangaha qoyulmasının digər mühüm səbəbi isə Rusiya-Azərbaycan münasibətlərinin pozulmasına yönəlmiş təşəbbüsdür".

**İsmayıl Qocayev**

## "Erməni terrorçularını geri verməmək lazımdır"

### Məhəmməd Əsədullazadə: "Azərbaycan erməni terrorçularını azad etməməklə prinsipiallığını ortaya qoyur"



**Bir neçə gün əvvəl erməni terrorçularını Ermənistana aparmaq məqsədilə Bakıya gələn təyyarə geriyə boş qayıdıb. Bu hadisə baş verdiyi andan etibarən siyasi müstəvidə "bomba" effekti yaradıb və müzakirələrə səbəb olub.**

*Məsələ barədə "Şərq"ə danışan Milli Cəbhə Partiyasının (MCP) sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə düşünür ki, belə proseslər qarşılıqlı kompromislər əsasında həyata keçirilməlidir:* "Rusiya Prezidenti Vladimir Putin Prezident İlham Əliyevə zəng edərək, Qarabağ ətrafında müzakirələr aparıb. Amma məsələnin əsas məğzi isə erməni terrorçuların azad edilməsi olub. Rusiya rəsmiləri çalışırlar ki, terrorçular azad edilsin. Lakin bunun qarşılığında Azərbaycanın tələbləri yerinə yetirilmir. Biz Rusiya tərəfinin xahişini nəzərə alıb muzdlu snayperçi, livanlı erməni qadın Maral Narcanyanı azad etdik. Bu, Azərbaycanın bir jesti və humanistliyi idi".

**Onun sözlərinə görə, rəsmi İrəvanın hərbçilərini geri qaytarmağa haqqı çatmır:** "İndi Kremlin durub əsassız şəkildə qarşılıqsız erməni terrorçuların azad edilməsinə çalışması həyasızlıq və Azərbaycana qarşı nəzakətsizlikdi. Azərbaycan erməni terrorçularını azad etməməklə prinsipiallığını ortaya qoyur. Və bu, davam etməlidir. Ermənistan minalanmış ərazilərin xəritəsini vermir, silahli erməni birləşmələri çıxarılmır və Rusiya sülhməramlı qüvvələri özbaşınalıq edir. Belə olan təqdirdə terrorçuları geri verməmək lazımdır".

**Kənan**

## "Hər şey - Ağdam məscidi, muzey məhv edilib"

### Ekspert: "BMT Ermənistanın törətdiyi hərbi cinayətləri diqqətə almalıdır"



**"Bura ruhlar məkanıdır, ermənilər burada hər şeyi tamamilə məhv ediblər".**

Bunu "Report"a Ağdama səfər edən İslamabad Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru Xalid Əkrəm deyib.

"Hər şey - Ağdam məscidi, muzey məhv edilib. Beynəlxalq ictimaiyyət bunu görməlidir. BMT Ermənistanın son 27 ildə törətdiyi hərbi cinayətləri diqqətə almalıdır", - o bildirib.

Ekspert həmçinin minalanmış ərazilərin xəritəsini Azərbaycana vermədiyinə görə Ermənistan tərəfini qınayıb: "Məhz buna görə bura çox təhlükəlidir. Beynəlxalq ictimaiyyəti bu məsələdə Ermənistana təzyiq göstərməyə çağırıram".

## Ukrayna XİN başçısı NATO Baş katibi ilə görüşəcək

**Ukraynanın xarici işlər naziri Dmitri Kuleba NATO Baş katibi Yens Stoltenberqlə görüşəcək.**

APA-nın NATO-nun saytına istinadən verdiyi xəbərə görə, görüş aprelin 13-də NATO-nun Baş qərargahında baş tutacaq.

Görüşdən sonra Ukrayna XİN başçısı NATO-Ukrayna Komissiyasının iclasına qatılacaq.

# Məğlub ölkənin təxribatları ara vermir

"Ermənistan postmünaqişə dövründə vəziyyəti gərginləşdirməyə xidmət edən addımlardan çəkinməlidir"



"Ermənistanın "hərbi əsirlərin qaytarılması" mövzusunda süni gündəm yaratmaq cəhdi siyasi manipulyasiyadır. Məqsəd üçtərəfli bəyanatın bəzi müddəalarından irəli gələn tələblərin bu ölkə tərəfindən icra olunmamasından diqqəti yayındırmaqdır".

**Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib. Onun sözlərinə görə, hərbi əsirlər mövzusu artıq öz həllini tapıb:** "Məlumdur ki, Azərbaycan tərəfi üçtərəfli bəyanatın imzalanmasından sonra Ermənistana 70-dən artıq hərbi əsir verib. Sirr deyil ki, 10 noyabr razılaşmasından sonra Ermənistan Azərbaycanın ərazilərində bir sıra hərbi təxribatlar törətməyə cəhd göstərib, nəticədə hərbçilərimiz həlak olub, mülki şəxs yaralanıb. Ermənilərin həmin təxribatçı qrupları Azərbaycan tərəfindən zərərsizləşdirilib və cinayətkarlar tutulub. Nəticə etibarilə, 10 noyabr 2020-ci il tarixli bəyanatın imzalanmasından, yəni hərbi əməliyyatların dayandırılmasından sonra Azərbaycanda saxlanılan şəxslər hərbi əsir hesab edilmirlər. Beynəlxalq humanitar hüquq normaları bu məsələni dəqiq təsbit edir. Onlar Azərbaycan Respublikasının cinayət məcəlləsinə görə qanun qarşısında hüquqi məsuliyyət daşıyırlar".

**N.Qələndərli əlavə edib ki, Ermənistan bu cür spekulyasiyalarla məşğul olmaq əvəzinə üçtərəfli bəyanatda əksini tapmış öhdəliklərinə qeyd-şərtsiz əməl etməlidir:** "Lakin görünən odur ki, məğlub ölkə hələ də siyasi təxribatlarını və hərbi cinayətlərini davam etdirir. Məsələn, Ermənistan minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir. Bu, beynəlxalq hüquq normaları əsasında qəbul edilmiş konvensiyalara zidd addım və növbəti müharibə cinayətidir. Eyni zamanda, bu cür qeyri-konstruktiv mövqe regional təhlükəsizliyə ciddi təhdid yaratmaqdır. Bunun qarşısını almaq üçün beynəlxalq təşkilatlar adekvat addımlar atmalı - məcburedici tədbirlər görməlidirlər. Ən əsası, müharibənin nəticələrindən dərs çıxarmalı olan Ermənistan postmünaqişə dövründə vəziyyəti gərginləşdirməyə xidmət edən addımlardan çəkinməlidir".

**Aynurə Pənahqızı**

## Prezidentin son 3 illik savaşı...

### Aqil Abbas: "Ömrə sığmayan işlər görülüb"



**Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin xalqın inamını qazanaraq növbəti dəfə prezident seçilməyinin üstündən üç il ötür.**

Əlbəttə, ötən müddət ərzində göstərilən etimad özünü doğrultdu. Xalq bir daha əmin oldu ki, ürəkdən, tərəddüdsüz "İlhamla İrəli!" demək olar.

**Millət vəkili, "Ədalət" qəzetinin təsisçisi Aqil Abbas ötən üç ildə görülən işlər barədə "Şərq"ə danışdı:** "Çox ciddi addımlar atılıb, o cümlədən idarəçilikdə, iqtisadiyyatda, xarici siyasətdə önəmli islahatlar aparılıb. Koronavirus pandemiyasına rəğmən, ölkənin dinamik inkişafı təmin olunub. Siyasi partiyalarla mühüm dialoqlar aparılıb.

Təsadüfi deyil ki, həmin partiyaların, demək olar, hamısı Qarabağ məsələsində vahid mövqedən çıxış etdilər. Əlbəttə, ən mühüm nailiyyətlərdən biri ordumuzun Şuşanı azad etməsi, orada Novruz tonqalının qalanması idi.

Prezidentin savaş dövründə xarici media orqanlarına verdiyi müsahibələr də çox əhəmiyyətlidir. Yəni son üç ildə bir ömrə sığmayan işlər görülüb. Onlar haqqında çox danışmaq olar".

**Kənan**

## Füzulidə "Araz" qəzetinin redaksiyası bərpa olunacaq

1931-ci ildə Füzulidə yaradılmış "Araz" qəzetinin redaksiyası bərpa ediləcək. Bu barədə Mədəniyyət naziri Anar Kərimov "Twitter" hesabında yazıb. O bildirib ki, "Araz" qəzeti Ermənistan işğalından əvvəl bölgədəki əsas media orqanı olub: "İndi binanın fasadının yalnız bir hissəsi vandalizmdən xilas olub. Biz onu bərpa edəcəyik".

Media nümayəndələri bu təşəbbüsü təqdirəlayiq hesab ediblər. Heç şübhəsiz, işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri başa çatdıqdan və əhalinin bölgəyə köçü başladıqdan sonra regional media orqanları da paralel fəaliyyətə başlayacaq. Zamanla həm yeni mətbuat qurumları meydana çıxacaq, həm də işğaldan əvvəl mövcud olmuş nüfuzlu KİV-lərin bərpası prosesi başlayacaq. Ekspertlərə görə, yeni reallıqlar, informasiya siyasəti və Qarabağın yenidən dirçəldilməsi baxımından bölgədə müxtəlif media orqanlarının fəaliyyəti olduqca önəmli və zəruridir.

**Təşəbbüsü "Şərq"ə dəyərləndirən Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, aparılmış araşdırmalara görə, Azərbaycanın bölgələrinə aid ümumən 70-ə yaxın qəzet var.** MŞ rəhbərinin sözlərinə görə, bölgə mətbuatı institutu dünyanın bir çox yerlərində mövcuddur və həmin ölkələrdəki yerli əhali informasiya əldə edilməsində onlara üstünlük verir: "Təbii ki, nəşrlər həmin istəyə adekvat fəaliyyət göstərirlər. Azərbaycanda da bölgələrdəki media orqanlarımızın dirçəldilməsinə məhz bu baxımdan ehtiyac var. Onların müstəqilliklərinin qorunması yerlərdə ictimai rəyin dügün formalaşması üçün müstəsna əhəmiyyət daşıyır. 50-100 il sonra elektron resursların indiki kimi populyar olub-olmayacağını proqnozlaşdırmaq mümkün deyil. Bölgə nəşrlərinin qorunması və inkişaf etdirilməsi ona görə lazımdır ki, bu media vasitələri fəaliyyətləri ilə gələcəkdə hazırkı dövrdə təmsil etdikləri ərazinin tarixini öyrənmək üçün əvəzsiz mənbə rolunu oynayacaqlar. Hələ sovet dövründə işğaldan azad olunmuş bölgələrimizin bir çoxunun kifayət qədər populyar mətbuat orqanları olub. Onların bəziləri işğal müddətində də fəaliyyətini davam etdirdi. Bu, şübhəsiz ki, böyük fədakarlıq tələb edirdi".



### Əflatun Amaşov: "Bölgələrdəki media orqanlarımızın dirçəldilməsinə ehtiyac var"

**Ə.Amaşov vurğulayıb ki, hazırda işğal başa çatıb və bölgə nəşrlərinin qarşısında mühüm vəzifə dayanmaqdadır:** "Onlar həmin ərazilərin, obrazlı desəm, "döyünən ürəyinə" çevrilməlidirlər. Elə fəaliyyət qurulmalıdır ki, öz bölgələri ilə bağlı informasiya mənbəyi rolunu oynasınlar. Təsəvvür edin ki, Füzulidə beynəlxalq hava limanı inşa edilir. Bu o deməkdir ki, bölgənin siması tam dəyişəcək. Orada həyat qaynarlaşacaq. Bu durumda ərazinin informasiya təminatı məsələsi aktuallaşmaqdadır. Çünki bölgəyə maraq yaranacaq. Söhbət həm də beynəlxalq maraqdan gedir. Belə olan durumda bölgə mediası həmin marağı qarşılamağı bacarmalıdır. Eləcə də Şuşanı qeyd etmək istərdim. Həm Şuşa, həm Füzuli, həm də digər işğaldan azad edilmiş bölgələrimiz eyni zamanda turizm potensialına malik yerlərdir. Bunu dünyaya bəyan etmək üçün medianın standartları da fərqli olmalıdır. Hələ mən bölgələrin nəhəng magistral layihələrin mərkəzində olacağı reallığını demirəm. Bir sözlə, dünyanın diqqəti bölgədə olacaq. Bu diqqət mütləq şəkildə qarşılanmalıdır. Bu baxımdan istər "Araz" qəzetinin, istərsə də digər media orqanlarının fəaliyyətinin bərpasını zəruri sayıram. Onların fəaliyyəti həm bərpa edilməlidir, həm də beynəlxalq standartlara uyğun şəkildə qurulmalıdır".

**İsmayıl Qocayev**

## Minaların xəritəsi rusların əlindədir

### "Bu müddət ərzində niyə rus sülhməramlılarından kimsə minaya düşməyib?"

**İkinci Qarabağ müharibəsi sona çatsa da, hələ də həllini tapmayan bir çox məsələ var. Məlumdur ki, müharibədən bir neçə ay keçməsinə rəğmən, Ermənistan minalı ərazilərin xəritəsini verməyib.**

Əslində qarşı tərəfin nə üçün belə addım atdığı məlumdur. Qısası, ermənilər hərzamankı kimi öz xislətlərinə uyğun davranaraq, "suyu bulandırmağa" çalışırlar. Məğlubiyyətini həzm edə bilməyən düşmən hər vəchlə mövcud prosesləri ləngidir.

Təbii ki, ermənilərin minalanmış ərazilərin xəritələrini verməməsi növbəti məkrli planın xəbərçisidir. Rəsmi İrəvan elə düşünür ki, minalanmış ərazilərin xəritələrini verməməklə işğaldan azad edilən Qarabağda yenidən işğala cəhd edə biləcək. Maraqlıdır, Azərbaycan tərəfi belə olan halda nə etməlidir?

**Siyasi elmləri doktoru, politoloq Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, bütün müharibələrdən sonra əraziləri minalayan tərəf, qalib olan dövlətə həmin xəritəni verməlidir:** "Ermənilər, tank, piyada və desant əleyhinə minalardan istifadə ediblər. Separatçılara qalsa, onlar xəritəni verərlər. Amma Rusiya buna icazə vermir. Çünki Rusiya Qarabağda istədiyini əldə edə bilməyib.

Rus sülhməramlıları bölgədə ancaq



üçtərəfli bəyanatın əsasında yerləşdirilib. Lakin onlar istəyirlər ki, Azərbaycan hərbi doktrinasında və qanunvericiliyində dəyişiklik olsun.

Çünki qanunvericiliyimizə görə, ərazimizdə hansısa ölkənin hərbi bazası ola bilməz. Rusiya isə bu qanunu dəyişdirməyə çalışır. Bu müddət ərzində rus sülhməramlılarından kimsə minaya düşməyib. Məsələn, Xankəndini minalamayıblar, lakin Ağdərə başdan-ayağa minalı ərazidir.

Ağdərənin həmin ərazilərində rus sülhməramlıları ilə bərabər ermənilər də "özünümüdafiə" adı ilə hərəkət edirlər. İki gün öncə, Rusiyanın Müdafiə naziri Azərbaycana daha bir mesaj verdi: Guya, rus sülhməramlıları gün ərzində hektarlarla sahəni təmizləyir və yüzlərlə minanı zərərsizləşdiriblər.

Əvvəla, rus sülhməramlılarının mina təmizləyənləri 30 nəfərdir. Gün ərzində 30 nəfərin təmizləyə biləcəyi ərazi ancaq kvadrat metrlərlə ölçülə bilər, hektarlarla yox. Deməli, həmin xəritələr rusların əlindədir və özlərinə lazım olan əraziləri təmizləyir. Eyni zamanda Azərbaycana mesaj verirlər - yəni ki, xəritə məndədir.

İkincisi, ermənilər Laçın, Kəlbəcər və Ağdamı boşaltmaq üçün 10 gün vaxt istəmişdilər. O zaman hara gəldi mina basdırıblar. Ona görə də 2-3 mərtəbəli minalanmış sahələr var".

**Analitik qeyd edib ki, ərazilərin təmizlənməsi üçün başqa dövlətlərdən də kömək gəlir, Azərbaycanın kifayət qədər texnikası var. Ona görə də bu durum Rusiyaya sərf etmir:**

"Ruslar gözləyirdilər ki, Azərbaycan bunun üçün 10 illərlə vaxt sərf edəcək. Lakin yaxın bir neçə il ərzində dövlətimiz həmin əraziləri minalardan təmizləyəcək.

Dövlətimiz minaların təmizlənməsinə dair hüquqi cəhətdən mümkün olan hər şeyi edir. Cənab Prezident hər çıxışında bu məsələyə toxunur. Səfirliklərimiz və xaricdə olan diasporumuz da bununla bağlı çox işlər görürlər.

Görünən odur ki, hazırda Rusiya siyasi cəhətdən küncə qısılıb. Nə vaxt ki, Ukrayna müharibə edəcək, bununla da Rusiyanın sonu gələcək, çox uzaqda deyil. Bu yay Rusiya üçün çox "isti" keçəcək".

**Yeganə Bayramova**



## Növbəti mərhələ gəlir

### Elxan Şahinoğlu: "Kreml sahibi Türkiyənin varlığını bölgədə qəbul edir"

**Türkiyənin Qarabağda hərbi varlığı təmin olunmalıdır: "Moskva bunu da qəbul etmək məcburiyyətində qalacaq"**

Bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla rusiyalı həmkarı Vladimir Putin arasında telefon danışığı olub. Tərəflər bir çox məsələləri, o cümlədən Ukraynadakı durumu, Montrö razılaşmasını və koronavirus peyvəndini müzakirə ediblər. Həmçinin liderlərin iki ölkə arasındakı əlaqələri inkişaf etdirəcək mövzular barədə müzakirə apardıqları vurğulanıb.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu sözügedən telefon danışığı barədə fikirlərini "Şərq"lə bölüşdü:** "Rusiya Prezidenti Vladimir Putinin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana zəng edib bir gün əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü barədə onu məlumatlandırması və Cənubi Qafqazda kommunikasiya xətlərinin açılması zərurətini bildirməsi təsadüfi deyil. Bu, Kreml sahibinin Türkiyənin bölgədəki varlığını qəbul etməsinin daha bir göstəricisidir. Kreml Türkiyənin Cənubi Qafdazda və Azərbaycanda möhkəmlənməsi amilini qəbul edib. Növbəti mərhələ Türkiyənin Qarabağda hərbi varlığını təmin etməkdir. Moskva bunu da qəbul etmək məcburiyyətində qalacaq".

**Kənan**

# 10 il yubanmışıq

## Həbslər vaxtında aparılmalı idi ki, məmurlar dövlət malını talan etməsinlər

**Məlum olduğu kimi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində Hesablama Palatasının 2020-ci ildə fəaliyyəti haqqında hesabatı təqdim olunub. Hesabatı Palatasının sədri Vüqar Gülməmmədov təqdim edib. Sədr vurğulayıb ki, ötən il 34-ü audit, 4-ü analitik və 3-ü monitorinq fəaliyyətini əhatə edən kənar dövlət maliyyə nəzarəti tədbirləri həyata keçirilib.**

Onun sözlərinə görə, ötənilki nəzarət tədbirləri daha çox aqrar sahəni, dövlət satınalmaları, maliyyə hesabatlarının təhlili, həmçinin büdcənin planlaşdırılması və icrası sahələrini, DSMF-nin hesabatlılığını əhatə edib. Hesabatda aqrar sahədə dövlət dəstəyinin səmərəliliyini azaldan amillər, dövlət satınalmaları sahəsindəki nöqsanlar deputatların diqqətinə çatdırılıb. Bildirilib ki, subsidiyalara müraciət edən istehsalçıların sadəcə dörddəbiri torpaqlara mülkiyyət hüququna dair çıxarışla təmin edilib. Becərilən torpaqların 33,7 faizi dövlət dəstəyindən kənarda qalıb. Mühasibat uçotunun aparılmasında ixtisaslaşmış kadrların çatışmazlığı, səriştəli kadrların isə özəl sektora axını müşahidə olunub. Ümumən, il ərzində aparılan auditlərlə müəyyən olunub ki, hesabatlarda düzgün əks etdirilməyən məbləğ 412,4 milyon manat təşkil edir. 2020-ci ildə başa çatdırılmış 34 audit üzrə nəticələrə əsasən 452 halda nöqsan müəyyən edilib.

*"Görülən işlərin nəticəsini tezliklə gözləmək olmaz. Bir neçə il lazım olacaq ki, təmiz cığıra çıxa bilək"*



**Millət vəkili, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev "Şərq"ə deyib ki, Hesablama Palatasının bir sıra qurumlarda yoxlamaları bu və ya digər şəkildə şəffaflığın yaranmasına az da olsa kömək edir.** Deputat bildirib ki, Hesablama Palatasının müxtəlif dövlət qurumlarında yeyintiləri üzə çıxarması, şişirtmələri aşkarlaması, büdcə vəsaitlərinin mənimsənməsini ortaya qoyması müsbət haldır: "Artıq dövlət orqanları bilməlidir ki, dövlətin büdcəsi nəzərdə tutulan mühüm məsələləri həll etmək üçündür. Büdcə heç kimin şəxsi əmlakı deyil, kiminsə arasından qalan mülk, maliyyə deyil. Nə qədər pullar ayrılsa da, sosial addımlar atılsa da, Azərbaycanda sosial narazılıq azalmır. Müəyyən vəsaitlər ayrılır və hər bir nazirliyin, komitənin, idarənin qarşısında müəyyən vəzifələr qoyulur ki, dövlət orqanları insanları razı salsınlar, onlardan gələn şikayətləri həll etsinlər. Amma biz bunun şahidi olmuruq. Şikayətlər və sosial narazılıq günü-gündən artır. "Vətəndaşların sosial vəziyyəti yaxşılaşır" deməklə yalan danışmış olarıq. Reallıq odur ki, iş yerləri bağlanır və xeyli adam işsiz qalır. Rəqabətli əmək haqları da yoxdur. Bütün bunların fonunda effektiv nəticə doğuran dəyişiklik baş vermir. Yəni bu qədər yoxlamalar aparılır, həbslər olur və s. Amma ciddi nəticə görünmür".

**Parlament üzvü vurğulayıb ki, son illərdə bəzi həbslər həyata keçirilib, vəzifədən çıxarılmalar olub. Lakin bu addımlar vaxtında atılmalı idi:** "Həbslərin gecikməsi yeni oğurluqların, mənimsəmələrin yaranmasına səbəb oldu. İnsanlarda inamsızlıq yarandı ki, fılankəs rüşvət yığır, ancaq onunla bağlı hansısa tədbir görülmür. Həddindən artıq gecikmişik. Hardasa 10 il yubanmışıq. Ona görə də görülən işlərin nəticəsini tezliklə gözləmək olmaz. Bir neçə il lazım olacaq ki, təmiz cığıra çıxa bilək. Əgər şəffaflığa doğru gedən proses sürətlənərsə, vəziyyət düzələ bilər. Ümid edirəm ki, Hesablama Palatası auditin aparılması üçün yeni mexanimzlər hazırlayacaq. Bununla oğurluqların, mənimsəmə hallarını daha müfəssəl şəkildə aşkara çıxarmaq mümkün olar. İndi müşahidə etdiklərimiz aysberqin sadəcə görünən tərəfidir".

**İsmayıl Qocayev**

## "Doğrudur, ortada Vətənə xəyanət var idi"

### İlham İsmayıl: "Lakin işgəncələr, qanunsuz əməllər də danılmazdır"



**Son günlər müzakirə olunan əsas məsələlərdən biri hələ 2017-ci ildə baş verən "Tərtər işi" hadisələridir.**

Üzərindən dörd il keçməsinə rəğmən, hadisə barədə müxtəlif versiyalar, iddialar səslənməkdədir. Bəzilərinin fikrincə, atılan radikal addımların səbəbkarları indiyədək əllərini-qollarını sallayaraq gəzirlər. Yəni bu dəfə cinayət cəzasız qalıb. Fakt isə ondan ibarətdir ki, sözügedən hadisə zamanı 100-dən çox əsgər və zabit işgəncələrə məruz qalıb, 25 nəfərə uzunmüddətli həbs cəzası verilib və ən azı 9 nəfər işgəncə nəticəsində öldürülüb.

**Həmin hərbi cinayət barədə "Şərq"ə danışan təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayılın sözlərinə görə, məsələdə qaranlıq məqamlar heç də az deyil:** "Düzdür, vətənə xəyanət var idi. Özü də həmin proseslər 2005-ci ildən başlamışdı. Lakin işgəncələr, qanunsuz əməllər də danılmazdır. "Tərtər işi"ni törədənlər cəzalarını alsalar da, bəzilərinin fikrincə, həmin cəza cinayətə adekvat deyil.

Bildiyim qədərilə 70-dən çox zərərçəkən olub. Düşünürəm ki, Baş prokurorluq bu hadisəni yenidən araşdırmalı və ictimaiyyətə dolğun informasiya verməlidir.

Əks halda manipulyasiya etmək istəyənlər olacaq. Belə ki, əsl cinayətkarlar kənarda qaldığı halda, istiqamət bilərəkdən başqa istiqamətə yönəldilir.

Dediyim kimi, belə halların qarşısını almaqdan ötrü yenidən ciddi tədqiqat aparılmalı və cəmiyyətə obyektiv informasiya verilməlidir".

**Kənan**

# Rayonlar gözəldir, amma zibilliklər olmaya...

## Naşir problemi qaldırdı, "təmiz rayon", "təmiz kənd" etmək olmazmı?!"

"Qanun" Nəşrlər Evinin rəhbəri Şahbaz Xuduoğlu feysbuk hesabında mühüm məsələyə toxunaraq, maraqlı bir təkliflə çıxış edib. O bildirib ki, Yardımlıda zibil atmağa yer yoxdur və kim hara gəldi zibili atır: "Çay kənarında yaşayanlar çayla axıdır. Kəndlərin ətrafında olan dərələr zibilxananı əvəz edir. Orda yaşayanlar bunu çox təbii qəbul edir. Çünki alternativ yoxdur. Yardımlıda zibil idarəsi var, amma onun təkcə bir "Qaz 53" maşını, 2 nəfər fəhləsi var. Onların da gücü mərkəzin zibilini təmizləməyə yetir.




"Təmiz şəhər" ideyası çox bəyənilir. Bunu "təmiz rayon", "təmiz kənd", "təmiz qəsəbə" etmək olmazmı?".

**"Şərq" olaraq təkliflə bağlı daha ətraflı məlumat almaq üçün Ş.Xuduoğlu ilə əlaqə saxladıq. Onun sözlərinə görə, pandemiya dövründə kənd və rayon yerləri aktual mövzuya çevrilib:** "Regionlar həyatımızda vacib rol oynayır. Bu mənada şəhərdə daha çox yoluxma ehtimalı olduğundan hər kəs rayonlara üz tutur. Təəssüf ki, rayonlar bu duruma hazır deyil kimi görünür.

Kənd yerlərində qaz, işsizlik kimi problemlər var və ümid edirəm ki, mərhələli şəkildə həllini tapa bilər. Lakin çox sadə bir problemi həll etmək lazımdır, ancaq həll olunmur. Məsələn, zibili atmağa yerin olmaması. Baxırsan ki, bir kənd öz zibilini dərəyə çay ilə yanındakı digər kəndə, həmin kənd də başqasına aparır.

Dərələrin, meşələrin hamısı zibillik olub. Yardımlıdan çıxıb Masallıya gələnə qədər maşınlar yol kənarında saxlayıb, zibilləri meşələrə atırlar. Belə olmaz axı. Yardımlı böyük bir rayondur, amma necə ola bilər ki, bu bölgəyə zibil daşımaq üçün əlavə maşın vermək olmasın?

Yaxud da kəndlərə zibil qutuları qoyulsun və sonra həmin qutular yığılıb gətirilsin. "Təmiz şəhər" ideyası çox yaxşıdır və gün keçdikcə genişlənir. Bəzi bələdiyyələr artıq öz zibillərini yığıb Bakıya göndərirlər. Çox istərdim ki, kəndlərdə də belə olsun".

**Ş.Xuduoğlunun fikrincə, insanlar dərk etmirlər ki, onların atdığı zibillər necə böyük ekoloji fəlakətin yaranmasına səbəb olur:** "Meşələrə gedirsən, hər tərəf sellofan paketlərlə doludur. Bir sözlə, çox eybəcər görüntü yaranır. Plastik su qablarında su içib, atırlar. Axı bu torpaqla qarışıb, çürüntüyə məruz qalmır. Düşünürəm ki, böyük maarifləndirmə işi aparılmalıdır.

Meşələrdə bəzi yerlərdə yanğından qorunma ilə bağlı plakatlar qoyublar. İnanıram ki, bu cür plakatlar köməklik edir. Amma yaxşı olar ki, yol qıraqlarına da zibilin atılmaması üçün plakatlar vurulsun. Zibil toplama bir iş kimi təsis edilər və əlavə iş yeri açıla bilər, insanların bir qismi bu işə cəlb olunar.

Rayonlarımızın təbiəti çox gözəldir, amma bu cür şəraitsizlik və alternativ təklif olmadığı üçün insanlar oranı zibilliyə çevirirlər".

**Yeganə Bayramova**

# Müharibənin üç yanı var

## Oda düşəni çıxarmaq çətin olacaq

### Rusiyanın üzərini qara buludlar alıb, Kreml münaqişənin ağır nəticələr verəcəyinin fərqindədir

İsmayıl Qocayev yazır

Ukrayna Prezidenti Vladimir Zelenski ölkənin şərqində gərginləşən vəziyyətlə bağlı danışıqlar aparmaq üçün Rusiya rəhbəri Vladimir Putinə müraciət edib. Bu barədə məlumatı Prezidentin mətbuat katibi Yuliya Mendel yayıb. Lakin o, hələlik heç bir cavab almadıqlarını bildirib: "Ümid edirik ki, bu, dialoqdan imtina deyil". Mətbuat katibi V. Zelenskinin Donbassda gərginləşən vəziyyətlə bağlı danışıqlar aparmaq üçün Parisə səfər edəcəyini vurğulayıb. Mendel Ukraynanın öz ərazisinə hücum etməyəcəyini və öz xalqı ilə döyüşməyəcəyini söyləyib: "Kiyev yalnız danışıqların sülhə səbəb ola biləcəyinə əmindir. Bu səbəbdən də Normandiya formatında danışıqlara cəhd edirik və mümkün olan bütün diplomatik yollarla məsələnin dinc yolla həllinə çalışacağıq".

Xatırladaq ki, Rusiya Ukraynanın şərq sərhədinə 40 min, Krıma isə 40 mindən çox hərbçi yerləşdirib. Ötən gün separatçıların atəşi nəticəsində bir Ukrayna əsgəri həlak olub. Peski və Vodyanoe kəndlərinin bombalandığı bildirilib. Ümumiyyətlə, 2014-cü ildən bugünədək Ukraynanın şərqindəki qarşıdurmalar nəticəsində 13 mindən çox insan həyatını itirib.







**"Rusiya aydınlıq gətirməlidir..."**

Almaniya Müdafiə naziri Anneqret Kramp-Karrenbauer Rusiyanı qoşunlarının Ukrayna ilə sərhəd yaxınlığındakı fəallığına aydınlıq gətirməyə çağırıb. Nazir rus ordusunun bölgədəki aktivliyinin şübhəli olduğunu bildirib: "Rusiyanın gizlədəcək bir şeyi yoxdursa, o zaman qoşunlarının bölgədəki davranışlarının hansı məqsədə qulluq etdiyini asanlıqla izah edə bilər". Bundan əvvəl Fransa Xarici işlər naziri Jan-İv Lyö Drian da oxşar açıqlama ilə çıxış etmişdi. Onun sözlərinə görə, Rusiya bölgədəki hərbi aktivliyini şəffaf şəkildə açıqlamalıdır. Aprelin 13-də Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba NATO Baş katibi Yens Stoltenberqlə görüşəcək. Görüş NATO-nun Baş qərargahında baş tutacaq.

**ABŞ-dan Rusiyaya Ukrayna xəbərdarlığı...**

**ABŞ dövlət katibi Entoni Blinken Ukrayna ilə Rusiya arasında yaşanan Donbass krizisi ilə bağlı açıqlama verib. Blinken Rusiyanın aqressiv siyasətinin nəticəsinin olacağını deyib:** "Amerika Rusiya ilə Ukrayna sərhədindəki durumdan narahatdır. Məsələni Avropadakı müttəfiqlərimizlə müzakirə edirik. Prezident Baydenin qeyd etdiyi kimi, Rusiya "aqressiv və məsuliyyətsiz" davranışına görə cavab verməli olacaq".

**Venediktov: "Zelenski Qarabağ senarisini təkrarlamaq istəyir..."**

"Exo Moskva" radiosunun baş redaktoru Aleksey Venediktov deyib ki, Donbassdakı müharibənin səbəbi Ukrayna prezidentinin öz reytinqini qaldırmaq istəyi ilə bağlıdır. O, Vladimir Zelenskinin Dağlıq Qarabağdakı müharibə senarisini, Azərbaycanın hərbi uğurunu təkrarlamağa çalışdığını bildirib. Bununla belə, o, Donbassdakı hərbi konfliktdə Rusiyanın da günahkar olduğunu deyib.

**"Zelenskinin çağırışları faydasız olacaq..."**

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə deyib ki, Ukrayna-Rusiya münasibətləri regionda yeni genişmiqyaslı hərbi əməliyyatların alovlanmasına doğru gedir.** Analitik sözlərinə görə, Rusiya tərəflər arasında hüquqi razılaşmanın əldə olunması istiqamətində real addımlar atmaq əvəzinə əlində saxladığı torpaqları "özününküləşdirmək" siyasəti güdür: "Bu isə bütün beynəlxalq normalara və münaqişənin əvvəlində Ukrayna ilə əldə olunan razılaşmalara ziddir. Rusiyanın "nə əldən qoyur, nə yardan doyur" prinsipi ilə həyata keçirdiyi Ukrayna siyasəti "Qarabağ işğalı"dövrünün təkrarlanmasıdır. Ukrayna Prezidenti Zelenskinin çağırışlarının faydasız olacağı bəllidir. Hətta tərəfləri təmsil edən nümayəndələr arasında təmaslar olsa belə hər hansı yumşalma gözlənilmir. ABŞ və Avropa Birliyi ölkələrinin Ukraynaya verdiyi siyasi və mənəvi dəstək Zelenskini daha qətiyyətli addımlar atmağa sövq edə bilər. Münaqişə alovlanacağı təqdirdə nəticədən asılı olmayaraq, ən azından siyasi cəhətdən qalib Ukrayna olacaq".

**"Kreml rəhbərinin ağlasığmaz davranışları dünyanı təngə gətirib"**

*Ekspertin qənaətincə, Türkiyənin Ukrayna ilə daha sıx hərbi tərəfdaşlığı və işğala məruz qalan əraziləri de-yure və de-fakto Rusiya ərazisi kimi tanımaması regionda yeni ciddi qüvvə meydana gətirib:* "Hazırkı şəraitdə Rusiya çıxılmaz duruma düşüb. Ukrayna sərhədlərinə çox sayda hərbi kontingent yığmasına baxmayaraq, Rusiya münaqişənin alovlanmasında maraqlı deyil. Çünki bunun ağır nəticələrlə bitəcəyinin fərqindədir. İstənilən halda Rusiyanın təcavüzkar siyasətinə son qoyulacaq. Uzun zamandır ki, Kreml rəhbərinin ağlasığmaz davranışları dünyanı təngə gətirib. ABŞ və Avropa Birliyi ölkələri Rusiyanın bu özbaşınalığına dözmək niyyətində deyillər. Müharibə başlanacağı təqdirdə Qərb bütün resursları ilə Ukraynanı dəstəkləyəcək və Rusiya hegemonluğuna son qoyulacaq".

# Bir azdan "gizli toylar"ın sayı-hesabı bilinməyəcək

## Ekspertlər hesab edir ki, 50-100 nəfərin iştirakı ilə mərasimlərə icazə verilməlidir




**"Avtobuslarda bir toyun adamı gedib-gəlir. Özü də bir-iki saat yox, səhər saat 6-dan axşam 12-yə kimi. Bunu marşrutların sayına vursaq, qorxunc bir rəqəm alınar. Necə olur virus orada yayılmır?"**

Artıq bir ildən çoxdur ki, pandemiya səbəbindən ölkədə toy məclislərinin keçirilməsi qadağan edilib. Hazırkı vəziyyətdə restoranların fəaliyyət göstərməsini və ictimai nəqliyyatdakı sıxlığı nəzərə alsaq, geniş zalda toyun keçirilməsində problemin olmadığını görə bilərik.

Son günlər mediada "gizli toy" xəbərlərini eşidirik. Sabirabadda toy, Samuxda toy, "Şuşa" restoranında toy... və s. Bu, hələ hüquq-mühafizə orqanlarına məlum olan və mediada yayılanlardır. Sual yaranır, nəyə görə belə olmalıdır? Sanitar qaydalar gözlənilməklə, məlum bir say müəyyən edilərək toylara icazənin verilməsi bu qədərmi çətindir?

**"Altay" Sosial-Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı "Şərq"ə açıqlamasında qeyd edib ki, toylara qoyulan qadağa absurddur. Çünki bu qadağa milli genefondumuza, demoqrafik vəziyyətə ciddi zərbədir:** "Hesab edirəm ki, 50-100 nəfərin iştirakı ilə toy mərasimlərinə icazə verilməlidir. Sadəcə, müəyyən məhdudiyyətlər və qorunma tədbirlər görülməklə. Bütün kafe və restoranlarda onlarla adam hər gün toplaşıb yeyib içirlər. Toy mərasimində də eyni şey edilir. Yeganə fərq orada böylə gəlinin iştirak etməsidir. Hesab edirəm ki, bu qadağa absurddur və dərhal ləğv edilməlidir. Ən pis halda açıq havada 1-2 saatlıq kiçik məclislər keçirilə bilər. Ya da böyük salonda az sayda adamla sıxlıq yaratmadan keçirmək olar. Bu qadağa yeni ailələrin qurulmasını kəskin azaldıb. Bu da milli genefondumuza, demoqrafik vəziyyətə ciddi zərbədir. Onun tezliklə aradan qaldırılması vacibdir".

**"Cümhuriyyət" qəzetinin baş redaktoru Rəfail Becanov hesab edir ki, belə münasibətlər dövlətlə xalq arasında narazılıq və etimadsızlıq yaradır və vətəndaşı dövlətdən narazı salır:** "Kütləvi yoluxmanın qarşısını almaq üçün qadağanın davam etdiyini söyləsələr də, arqumenti artıq vətəndaşlar qəbul etmir. Çünki arqumentlər yetərsizdir. Dünya Səhiyyə Təşkilatı koronavirusu pandemiya elan edib. Bəs, onda necə olur ki, Türkiyədə olar, Rusiyada olar, amma Azərbaycanda olmaz?! Avtobuslarda qəti şəkildə sanitar məsafə gözlənilmədən bir toyun adamı gedib-gəlir. Özü də bir-iki saat yox, səhər saat 6-dan axşam 12-yə kimi. Bunu marşrutların sayına vursaq, qorxunc bir rəqəm alınar. Necə olur virus orada yayılmır? Amma 300-500 kvadrat metrlik yerdə 80-100 nəfərlik məclis olsa virus tüğyan edəcək?! Bu vəziyyət görünür kimlərəsə sərf edir. Amma narazılıq artır. İnsanların əsəbləri tarıma çəkilir. Ona görə "gizli toy"lar dövrünə qədəm qoyuruq. Ramazan ayı başlayır. Heç olmasa, Ramazandan sonra icazə verin, bu "gizlilikləri" leqallaşdırın".

**Milli Məclisin deputatı Fazil Mustafa isə bildirib ki, vətəndaşların qaydalara əməl etmək və müəyyən dərəcədə özlərini qorumaqla gizli şəkildə də olsa, toy keçirmələrini normal qəbul etmək lazımdır:** "Çünki bu bir reallıqdır, insan həyatıdır. İnsanların həyatının elə bir mərhələsi ola bilər ki, toyu indi keçirməsə gələcəkdə həyatı alt-üst ola bilər, münasibətləri pozular və s. Ona görə də mən buna normal yanaşıram. Hər hansı şəkildə əndazəni aşarlarsa, bu zaman cəzalandırma ola bilər. Amma normal şəkildə, həyatında, sosial məsafəni qorumaq və az adam dəvət etməklə bunu edirlərsə, mane olmağı doğru hesab etmirəm. Qanun müəyyən dərəcədə bunu tələb etsə belə, toy insanların həyatında ən vacib məsələlərdən biridir. Bu məsələdə vətəndaşların üzərinə bu dərəcədə gedilməsi doğru deyil. Sadəcə tənzimləmək lazımdır ki, məsələn, filan sayda adamla etmək olar. Sayı aşarlarsa cəzalandırılsınlar. Amma ümumiyyətlə, qadağa qoyanda insanlar təbii ki, bunu gizli şəkildə edəcəklər. Bu məsələdə kimisə qınamağın adı yoxdur".

**Aynurə Pənahqızı**

# Daha 1151 nəfər koronavirusa yoluxub

## 29 nəfər vəfat edib, 1052 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1151 yeni yoluxma faktı qeydə alınıb, 1052 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 29 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 287144 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 251760 nəfər müalicə olunaraq sağalıb, 3944 nəfər vəfat edib, aktiv xəstə sayı 31440 nəfərdir.

Ölkədə son sutka ərzində 7687, hazırkı dövrədək isə 3026132 test aparılıb.

# Azərbaycanlı avtoritet Moskvada qətlə yetirilib

## Müstəntiqlər Moskvada qətlə yetirilən Əli Heydərovun ölümü ilə bağlı iki versiya irəli sürüb




**Azərbaycanlı "qanuni oğru" Əli Heydərov Moskvada qətlə yetirilib.**

"Albert Rıjiy" ləqəbi ilə tanınan kriminal avtoriteti fitnes mərkəzində güllələyiblər.

Killer Əli Heydərovun kürək nahiyəsindən atəş açıb. Müstəntiqlər Moskvanın "Alıe parusı" elit yaşayış kompleksində qətlə yetirilən azərbaycanlı "qanuni oğru" Əli Heydərovun (Albert Rıjı) qisasçılıq zəminində öldürülməsi ilə bağlı iki versiya irəli sürüblər.

APA RİA Novosti-yə istinadən xəbər verir ki, ilkin versiya kriminal avtoritetin ölümü oğru dünyasının nümayəndələri tərəfindən qisasçılıq zəminində törədilib.

Qeyd edilib ki, "Albert Rıjı" kriminal aləmin məşhur ismlərindən olan Nadir Səlifovun (lotu Quli) qətlinin gizli sifarişçisi olduğundan öldürülüb.

Digər versiyaya görə, qətl mərhumun hüquq-mühafizə orqanlarının əməkdaşları ilə əməkdaşlıq etdiyi üçün həyata keçirilib.

*Xatırladaq ki, "qanuni oğru" Əli Heydərov bu gün saat 13 radələrində Moskvada "Alıe parusı" elit yaşayış kompleksinin fitnes zalında qətlə yetirilib. Muzdlu qatil zala girərək silahla ona arxadan atəş açıb.*

# Tıxaclardan qurtulmağın bir yolu var

## *Avtomobilinin nömrəsi cüt rəqəm olanlar həftənin cüt günləri, tək olanlar isə tək günlər şəhərdə maşın sürmək hüququna sahib olsunlar*






**Elməddin Muradlı: "Əslində bu nömrə məsələsi haqqında düşünmək olar. Tətbiq də etmək olar. Amma ilk növbədə ictimai nəqliyyat mükəmməl işləməlidir"**

**Bu gün paytaxt Bakıda tıxac ictimai, eləcə də digər yolnəqliyyat vasitələrinin hərəkətində problem yaradır.**

Qeyd edək ki, sözügedən problem şəhərin əksər hissələrində yaşanmaqdadır və demək olar ki, hər gün müşahidə edilir. Nəzərə almaq lazımdır ki, bağça, məktəb və universitetlər, həmçinin, digər müəssisələr onlayn fəaliyyət göstərir. Buna baxmayaraq yollarda sıxlıq hələ də var. Lakin insanlar şəhərdə stressiz, tıxacsız bir yaşam görmək istəyir.

Buna görə də məlum məsələnin həlli yollarını axtardıq. Qeyd edək ki, xeyli əvvəl təklif irəli sürülmüşdü ki, maşınının nömrəsi cüt rəqəm olanlar həftənin cüt günləri, tək olanlar isə tək günlər şəhərdə maşın sürmək hüququna sahib olsunlar.

**Təklif haqqında "Şərq"ə danışan nəqliyyat üzrə ekspert Elmədin Muradlı deyib ki, bu, beynəlxalq təcrübədə tətbiq edilən bir vasitədir:** Bəzi xarici ölkələrdə maşınlar nömrələrinə uyğun olaraq həftənin günlərinə bölünüb şəhərə buraxılır. Amma bunu Azərbaycanda tətbiq etməyin nə dərəcədə real ola biləcəyi məlum deyil. Çünki Azərbaycan mentaliteti biraz fərqlidir. Eləsinin varıdır, gedib iki maşın alacaq. Bir gün birini, sabah isə başqa birini sürəcək. Bunun da qarşısını almaq mümkün olmayacaq.

Bu baxımdan ancaq yol şəbəkəsinə üstünlük vermək lazımdır. Yolu genişləndirmək, yol kənarlarında olan tikililərin qarşısını almaq, onlara nəzarət etmək və s.

Əslində bu nömrə məsələsi haqqında düşünmək olar. Tətbiq də etmək olar. Amma ilk növbədə ictimai nəqliyyat mükəmməl işləməlidir. Onun alternativ variantları olmalıdır. Bir maşını olanlar işə vaxtında gedib çata bikəcəkmi, ictimai nəqliyyata güvənə bilərmi və s. kimi suallara cavab tapılsa bu sistemi də tətbiq etmək haqqında düşünmək olar".

**Ağarza Elçinoğlu**



## İŞİD aktivləşib

### 10 minə yaxın terrorçu məqam gözləyir

**Dünyanın başı koronavirusla mübarizəyə qarışdığı bir vaxtda məhv olduğu iddia edilən İŞİD terror qruplaşması yenidən gün üzünə çıxıb.**

İllərdir səssizliyini qoruyan və yer altına çəkilən dəhşətli terrorçu qruplaşma 3 ildən sonra ən böyük teraktını reallaşdırıb. "Şərq"in Türkiyə mediasına istinadən verdiyi xəbərə görə, Suriyanın qərbində Al-Saan qəsəbəsini hədəf seçən terrorçular bölgədəki polis şöbəsinə hücum ediblər. Terrorçular 8-i polis və əsgər olmaqla ümumilikdə 46 nəfəri əsir götürüblər. Hücumda bir neçə mülki şəxs ölüb, xeyli insan yaralanıb.

Ekspertlər İŞİD-in yuxuya getmiş hücrələrinin oyandığını iddia edirlər. Onların fikrincə, gizli məkanlarda 10 minə yaxın terrorçu gizlənib və uyğun vaxt gözləyirlər. Terrorçuların əsas hədəflərinin əsasən hərbi maşınlar və əsgərləri daşıyan vasitələr olduğu deyilir. İŞİD-in İraqda da meydana çıxdığı deyilir. Suriya İnsan Haqları Mərkəzinin rəhbəri Rami Abdel Rahman bildirib ki, İŞİD terrorçuları əvvəlki vaxtlarda daha çox hökumət adamlarını, polis və əsgərləri hədəf alırdılar. Amma son aylarda yenidən ortaya çıxan İŞİD bugünədək 28 çobanı öldürüb.

**İsmayıl**

## Çin öz vaksinlərini bəyənmir

### Rəsmi məlumatlara görə, "Sinovac" peyvəndinin effektivliyi 50,4 faizdir




**"Kitayski vaksin" effektli deyilmiş!. "Şərq" Lenta-ru-ya istinadən bildirir ki, Çin hazırda dünya ölkələrinə idxal etdiyi COVİD-19 peyvəndlərinin o qədər də effektli olmadığını etiraf edib. Bu barədə "The New York Post" məlumat verir.**

Çinin Xəstəliklərin Yayılmasına Nəzarət Mərkəzi SARS-CoV-2 - yeni növ koronavirusa qarşı istehsal etdiyi peyvəndin güclü təsirə malik olmadığını açıqlayıb. "Hazırda immunizasiya üçün müxtəlif istehsalçıların peyvəndlərindən istifadə variantlarına baxılır", deyən mərkəzin direktoru Qao Fu, Çin peyvəndlərinin yüksək effektivliyindən danışa bilməyəcəyini də söyləyib. Rəsmi məlumatlara görə, Çinin "Sinovac" peyvəndinin effektivliyi 50,4 faiz təşkil edir. Çinin özündə isə hər hansı xarici ölkə istehsalı peyvəndlərin istifadəsinə razılıq verilməyib. Çin əhalisinə artıq 10 milyon dozada peyvənd vurulub. Çində yayın ortalarınadək 1 milyarda yaxın insanın peyvənd olunacağı planlaşdırılır.

**Məlahət Rzayeva**

## 19 nəfərin ölümünə səbəb...

### Qəzanın səbəbi araşdırılır



**Misirdə 19 nəfərin ölümü ilə nəticələnən iki sərnişin qatarının toqquşmasının səbəbi məlum olub.**

Bu barədə "Şərq" TASS-a istinadən xəbər verir. Bildirilir ki, bədbəxt hadisəyə səbəb dispetçerlərin səhlənkarlığı olub. Həmçinin araşdırma zamanı qatarlardan birinin sürücüsünün narkotik maddə qəbul etdiyi üzə çıxıb.

**Kənan Novruzov**

# Ərdoğan bacardı

### *Rusiya-Ukrayna müharibəsi başlamayacaq*

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya ilə Ukrayna arasındakı toqquşmanın əngimədən, sülh yolu ilə həllinin tərəfdarıdır. Türkiyə lideri, həmçinin ukraynalı həmkarı Vladimir Zelenski ilə görüşündən danışıb. O, problemin sülh yolu ilə həlli üçün bütün səylərin səfərbər olunduğunu deyib.



"Hazırkı status-kvo qorunacaq və Rusiya hərbi əməliyyatları aktivləşdirməyəcək"

Qeyd edək ki, Ukrayna Prezidenti Vladimir Zelenski ölkənin şərqində gərginləşən vəziyyətlə bağlı danışıqlar aparmaq üçün Rusiya Prezidenti Vladimir Putinə müraciət edib.

Bunu Ukrayna Prezidentinin mətbuat katibi Yuliya Mendel deyib.

"Prezidentin ofisi Vladimir Putinlə danışıq aparmaq üçün müraciət edib. Hələ bir cavab almamışıq. Ümid edirik ki, bu, dialoqdan imtina deyil", - deyə Y. Mendel bildirib.

O bildirib ki, Rusiya Ukraynanın şərq sərhədinə 40 min, Krıma isə 40 mindən çox hərbçi yerləşdirib.

Mətbuat katibi V.Zelenskinin Donbasda gərginləşən vəziyyətlə bağlı danışıqlar aparmaq üçün Parisə səfər edəcəyini vurğulayıb.

Ukrayna dövlət başçısının Ankaraya səfəri və Ərdoğanın rusiyalı həmkarı ilə telefon danışığı artıq üçlü formatın yarandığını göstərir. Elə isə indiki vəziyyətdə Türkiyənin rolu nədən ibarət olacaq?

**Siyasi analitik Turab Rzayev bu barədə fikirlərini "Şərq"lə bölüşdü:**

"Aydındır ki, Kreml dünyaya mesaj vermək, öz gücünü göstərmək istəyir. Amma indiki halda genişmiqyaslı müharibə Moskva üçün arzuolunmaz nəticələrlə yadda qala bilər. Məsələn, sanksiyalar artar, imici daha da pisləşər. Zelenski isə xüsusilə Qərbin dəstəyini hiss etdiyi vaxtda geri addım atmaq istəmir.

Əks halda qarşıdan gələn prezident seçkilərində qalib gəlmək şansı azalar. Belə mürəkkəb şəraitdə Ərdoğan tərəflərə sülhün təmin olunmasında maraqlı olduğunu bildirdi. Və bir növ barışdırıcılıq missiyası ilə çıxış edərək tərəfləri ən azından hazırkı status-kvonun qorunmasının daha yaxşı olduğuna inandırdı".

**T. Rzayev yaxın gələcək üçün savaş ehtimalını istisna edir:**

"Görünür, Ərdoğan bunu bacardı. Çünki Rusiya prezidentinin sözçüsü Vladimir Peskov öz açıqlamasında müharibəyə başlamaq fikirlərinin olmadığını söyləyib. İkinci bir tərəfdən, Rusiya adətən hərbi əməliyyatlara qəfil başlayır. İndiki halda isə bir aydır ki, hazırlıqların getdiyini görürük. Əlbəttə, Moskvanı çəkindirən bir məqam da NATO-nun hərəkətlənməsidir.

Zənnimcə, hələ bir müddət hazırkı status-kvo qorunacaq və Rusiya hərbi əməliyyatları aktivləşdirməyəcək".

**Kənan Novruzov**

# Lavrov əndişədədir

### *Zelenskinin Türkiyəyə səfəri təsadüfi deyil*

Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Türkiyəni Ukrayna hakimiyyətinin militarist hisslərini alovlandırmamağa çağırıb. Lavrov bunu mətbuat konfransında Ankaranın Kiyevə dronlar satması ilə bağlı məlumatı şərh edərkən deyib: "Əlaqə qurduğumuz bütün məsul ölkələrə - Türkiyə də bunlardan biridir - Kiyevin döyüş ruhlu bəyanatlarını təhlil etməyi qətiyyətlə tövsiyə edirik və onları bu militarist duyğuları bəsləməmək üçün xəbərdar edirik".



"Düzdür, Türkiyə Ukraynanı tam dəstəkləyir, Krımla bağlı öz dəstəyini bəyan edir. Lakin Ankara indiki halda Kremlə gərginlikdə maraqlı deyil"

Məlum olduğu kimi, Vladimir Zelenski Türkiyəyə səfər edərək bu ölkənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla görüşüb. Liderlər həm regionda baş verənləri, həm də hərbi-siyasi əməkdaşlığı müzakirə ediblər. Tərəflər iki ölkə arasında strateji tərəfdaşlıqları bir daha təsdiqləyiblər. Türkiyə prezidenti vurğulayıb ki, Minsk razılaşmaları çərçivəsində Ukraynanın şərqində gərginliyi azaltmaq vacibdir. Ukrayna və Türkiyənin müdafiə sahəsində əməkdaşlığını isə Ərdoğan vacib element adlandıraraq, onun hansısa üçüncü dövlətin əleyhinə yönəlmədiyini vurğulayıb.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Ukrayna Prezidenti Vladimir Zelenskinin Türkiyəyə səfəri heç də təsadüfi deyildi. Analitikin sözlərinə görə, Zelenski bundan əvvəl də Türkiyəyə səfər edib və tərəflər arasında 21 maddəlik razılaşma əldə olunub:** "Həmin anlaşma 44 günlük Qarabağ savaşından öncəydi və əsasən PUA-larla bağlıydı. Ukrayna uzun müddətdir hərbi arsenalını pilotsuz uçan aparatlarla zənginləşdirmək istəyir. Türkiyə ilkin olaraq Ukraynaya orta həcmli PUA-lar verib. Lakin Vətən müharibəsində "Bayraktar"ların üstün nailiyyətləri Kiyevin də diqqətini cəlb etdi. Ukrayna bu tip PUA-ların döyüşün taleyini həll etdiyinin şahidi oldu. Zelenskinin Türkiyəyə səfəri həm müqavilənin icrasını sürətləndirmək, həm də "Baytaktar"larla bağlı müzakirələr aparmaq idi. Ukraynanın şərqində vəziyyət heç də ürəkaçan deyil. Qarabağ müharibəsindən ruhlanan Ukrayna öz torpaqlarını separatçılardan təmizləyəcəyinə böyük ümidlər bəsləyir. Müharibənin maksimum tez və minimum itkilərlə bitməsi Kiyevin əsas istəyidir. Ukrayna yaxşı bilir ki, separatçılarda olan hərbi texnika rusların köhnə silahlarıdır. Əlbəttə, Rusiyanın narahatlığı da təbiidir. MDB məkanındakı ölkələrin əksəriyyəti köhnə sovet hərb sisteminin müəyyən mənada modernləşmiş formasından istifadə edirlər. Nəticədə ordular bir-birinə çox bənzəyir. Moskva bu mənzərənin dəyişməsindən ciddi narahatlıq duyur".

**Politoloqa görə, Ankaranın məqsədi Ukraynanı hərbiləşdirmək deyil:** "Zelenskinin səfərindən sonra Ukrayna rəsmiləri ordunun Donbassa hücum etməyəcəyini açıqladı. Digər yandan rəsmi Kiyev bildirdi ki, Zelenski Putinlə görüşmək, müzakirə aparmaq niyyətindədir. Bu məqamlar göstərir ki, Ankara görüşü iki müstəvidə cərəyan edib. Birinci etap Ukrayna ilə Türkiyənin ikili əməkdaşlığı idisə, məsələnin ikinci tərəfi Rusiya ilə gərginliyin artmaması yönündə verilən tövsiyələr idi. Türkiyə indiki halda tərəflərin müharibəsini istəmir. Bu, dolayı yolla Ankara-Moskva münasibətlərinin pozulması deməkdir. Düzdür, Türkiyə Ukraynanı tam dəstəkləyir, Krımla bağlı öz dəstəyini bəyan edir. Lakin Ankara indiki halda Kremlə gərginlikdə maraqlı deyil. Çünki tərəflər arasında çoxsaylı hərbi müqavilələr, sövdələşmələr var. Görünür, Moskva Lavrovun diliylə Ankaraya mesaj verir ki, Rusiya Türkiyə üçün Ukraynadan daha lazımlı tərəfdaşdır".

**İsmayıl Qocayev**

# İctimai və dövlət maraqlarının müdafiəsi



# İctimaiyyət də həssas olmalıdır

## Ramazan ayını daha çox ailə daxilində, fərdi şəkildə qarşılamalıyıq

İki ildir ki, mübarək Ramazan ayı fərqli şəraitdə keçirilir. Dünyanı lərzəyə salmış koronavirus pandemiyası ötən il Ramazan ayını vəhdətdə keçirməyimizə mane oldu. Pandemiya təhlükəsi səbəbiylə geniş iftar süfrələri, qonaqlamalar təxirə salındı. Gərəkən də bu idi. Allahın buyruğuna əməl edən bəndə can güvənliyinin hər hansı digər ibadətdən üstün olduğunu bilməli və buna uyğun davranmalıdır.

Bu il də Ramazanı daha çox ailə daxilində, fərdi şəkildə qarşılayıb, oruc saxlayıb, başa vurmalı olacağıq. Çünki pandemiya səngiməyib, əksinə, hazırda yoluxma sayında kəskin artım var. Ötənilki Ramazanda heç bu qədər yoluxma sayı yox idi, ölüm halları isə hətta 1 rəqəmli idi. İndiki gərgin vəziyyət isə möminlərdən daha həssas yanaşma və anlayış tələb edir. Təhlükə bu qədər real olmasaydı, dövlət Ramazanın əvvəlki illərdə olduğu kimi coşqulu və heç bir sədd qoyulmadan keçirilməsinə mane olmazdı. Azərbaycanda dini və milli dəyərlərin əsas təəssübkeşi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin timsalında Azərbaycan dövlətidir. Dini dəyərlərin qorunması, dindar vətəndaşların ibadətlərini rahat, təhlükəsiz şəraitdə yerinə yetirmələri dövlət siyasətimizin bir hissəsidir. Və Azərbaycan dövləti bu məqsədlərə nail olmaq üçün bütün zəruri tədbirləri görür, münbit şəraiti formalaşdırır. Lakin pandemiya hər birimizdən vətəndaş məsuliyyəti tələb edir. Dövlət maraqlarının təminatı üçün vətəndaş məsuliyyəti əsasdır. Dövlət vətəndaşlarını qoruduğu, onların təhlükəsizliyini və sağlamlığını düşündüyü kimi, vətəndaş da dövlətin ağır yük altına düşməməsinə çalışmalıdır. Hazırkı Ramazan ayında bu vəzifə xüsusilə əhalinin dindar kəsiminin üzərinə düşür.

### "İftar süfrələri yalnız ailə üzvləri ilə keçirilməlidir"

Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının Ramazan ayının başlanması ilə bağlı fətvasında dindar vətəndaşları anlayışlı olmağa, yoluxma təhlükəsini nəzərə alaraq geniş iftar süfrələri təşkil etməkdən çəkinməyə çağırıb.

Fətvada mübarək Ramazan ayının başlanması münasibətilə dünya müsəlmanları, o cümlədən, ölkəmizin müsəlman əhalisi təbrik edilir, Allah-Təaladan ibadətlərimizin və dualarımızın qəbul olunması istənilir. Fətvada Azərbaycanın mübarək ayı qalib xalq kimi qarşıladığı xüsusi vurğulanır: "Biz bu ilin Ramazan ayına qalib xalq, 30 illik işğala son qoymuş Vətən müharibəsində Zəfər çalmış millət kimi qədəm qoyuruq. Bizə bu səadəti yaşatdığına görə Azərbaycan dindarları Azərbaycan Ordusunun gücünə, Azərbaycan xalqının sarsılmaz həmrəyliyinə, dövlət-xalq birliyinə güvənən

> "Pandemiya hər birimizdən vətəndaş məsuliyyəti tələb edir. Dövlət maraqlarının təminatı üçün vətəndaş məsuliyyəti əsasdır"

Müzəffər Sərkərdə, Ali Baş Komandan İlham Əliyevə hər zaman dualar edir, qələbələrimiz üçün Uca Allaha həmd-sənalar edirlər. Vətən uğrunda canını fəda etmiş qəhrəman şəhidlərimizə Allah-Təaladan rəhmət, qazilərimizə şəfa diləyirik. Ərazi bütövlüyümüzün bərpa edilməsi, əzəli torpaqlarımıza Böyük Qayıdışın təmin edilməsi, viran qoyulmuş ərazilərimizə yeni nəfəs verilməsi, Qarabağda müasir, yüksək səviyyədə həyat şəraitinin qurulması və vandalizmə məruz qalmış dini məbədlərin, o cümlədən, məscidlərin bərpa edilməsi istiqamətində fövqəladə zəhmətlərinə görə müzəffər dövlət liderimiz, Zati-aliləri Prezident İlham Əliyevə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Azərbaycan dindarları adından dərin minnətdarlığımızı bildirir və onlar üçün xeyir-dualar edirik".

*Fətvada virus təhlükəsinə diqqət çəkilir:* "Biz builki Ramazan ayına bütün dünyada hələ də səngiməyən virus təhlükəsi şəraitində daxil oluruq. İnsan sağlamlığına ciddi təhlükə, ölümcül təhdid olan bu bəlanın aradan qaldırılması yönündə dövlətimiz böyük səylə çalışdığı bir zamanda biz, din xadimləri dövlətimizin insan həyatının qorunması məqsədilə həyata keçirilən vaksinləşmə tədbirlərini dəstəkləyirik. Yoluxmaların artma təhlükəsi olduğundan, xüsusi karantin rejimi dövründə adət-ənənələrimizə söykənən kütləvi dini mərasimlərin müvəqqəti olaraq keçirilməməsini tövsiyə edir, İftar süfrəsinin hər bir evdə yalnız ailə üzvlərinin iştirakı ilə açılmasına çağırırıq. Bir daha bildiririk ki, bütün bu tövsiyələr hazırda tüğyan edən xəstəlik səbəbindən müvəqqəti səciyyə daşıyır".

### "Peyvənd orucu pozmur, ona görə də"

*İlahiyyatçılar peyvəndin orucu pozmadığı rəyində yekdildirlər. Əgər kimsə hesab edirsə ki, oruclu olduğu halda peyvənd vurdurarsa, orucu pozulmuş olacaq, bu, yanlış fikirdir.*

Xatırladaq ki, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, ilahiyyatçı Hacı Şahin Həsənli mediaya açıqlamasında oruclu ikən peyvənd vurdurmağın orucu pozmadığını, hətta özünün peyvənd vurdurarkən oruclu olduğunu demişdi: "Vaksinasiya orucla heç bir ziddiyət təşkil etmir. Maska taxmaq, əllərin dezinfeksiya edilməsi orucun pozulmasına gətirib çıxarmır. Əksinə, əllərin dezinfeksiyası və maskalardan istifadə etmək vacibdir. Ramazan ayında kütləvi iftar mərasimlərindən çəkinmək lazımdır. Müəyyən iaşə obyektlərində də qaydalar tətbiq edilib ki, məhdud sayda insanlar bir masa ətrafında otura bilərlər. Məscidlərdə dini ayinlər kütləvi şəkildə icra edilməyəcək. Ona görə də din xadimləri canlı yayım vasitəsilə məscidlərdə çıxış edəcəklər". Fətvada da bildirilir ki, peyvəndlənmə özümüzün və ətrafımızdakıların səhhəti baxımından həyati zərurət daşıyan vacib addım, şəriət baxımından məqbul əməldir. Bu caiz məqamın reallaşmasında fəal iştirak edən din xadimləri öz nümunə ilə bütün dindarları bu mühüm prosesdə iştiraka dəvət edirlər. Ramazan ayı boyunca bu mühüm proses davam etməlidir. Yüksək din alimlərinin rəyinə görə, Ramazan ayı boyunca oruclu şəxsin vaksin vurdurması orucu batil etmir.

### "Real vəziyyət bizdən anlayışlı davranmağı tələb edir"

**Qarabağ Seyid Ocaqlarının təmsilçisi, şərqşünas Seyid Camal Əzimbəyli "Şərq"ə açıqlamasında Ramazan ayının hər zaman xeyir əməllər və yardımlaşma üçün böyük imkanlar açdığını dedi:** Ramazan şəfqət, mərhəmət, bağışlanma ayıdır. Həm də Rəbbimizin bəndələrinə fürsət tanıdığı bir aydır. Bu ayda həqiqi Allah bəndələrinin qəlbi mərhəmətlə dolur. Bu mənada Ramazan müsəlmanların baharı kimi qəbul olunur. Azərbaycan demokratik, dünyəvi bir dövlət olsa da, məlumdur ki, milli-mənəvi və dini dəyərlərin qorunması, mühafizəsində dünyaya ən gözəl nümunədir. Azərbaycan dövləti və onun başçısı - cənab Prezident hər zaman dini dəyərlərə hörmətlə yanaşıb və bunu əməlləriylə sübut edib. Lakin elə hadisələr ola bilir ki, bu zaman insan həyatı bütün digər amillərdən önə keçir. Bir halda ki, hazırda pandemiya şəraitindəyik, dünyanı dəhşətə salan koronavirus bəlası bizim ölkədən və xalqımızdan yan keçmir, gərək davranışlarımızı şəraitə uyğun tənzimləyək. Bunu da xüsusi vurğulamalıyam ki, builki Ramazan bizim üçün ikiqat bayram olacaq. Çünki 28 il sonra Ramazanı həm də işğaldan azad edilmiş Qarabağımızda keçirəcəyik. Bu, bizim üçün əvəzsiz iftixar hissidir və qürurvericidir. Amma qeyd etdiyim kimi, pandemiyanı yaddan çıxarmamalı və daha artıq ehtiyatlı davranmalıyıq. Məlumdur ki, ötən il də Azərbaycanda Ramazan ayı boyunca kütləvi iftar süfrələrinin açılması məhz koronavirus təhlükəsi səbəbiylə dayandırıldı. Koronavirus bizi tərk etmək istəmir, üstəlik, sürətini daha da artırır. Bunu yoluxma sayındakı artım göstərir. Bu gedişlə builki Ramazanı da dar ailə çərçivəsində, məhdud dairədə, fərd olaraq keçirmə ehtimalı daha böyükdür. Yəni, bu il də Ramazanı coşqu ilə, elliklə yaşaya bilməyəcəyik. Sonucda, Allaha təvəkkül. Görünür, bunda da İlahi sirr, İlahi hikmət var. Xəstə olanlar, o kəslər ki, oruc tutmaları onların səhhətini ağırlaşdıra və xəstələnmələrə səbəb ola bilər, həmin insanlar oruc tutmamalıdır. Yalnız səhhəti oruc tutmağa imkan verənlər, sağlam olanlara oruc vacibdir, ilahi hökmdür. İftar süfrələrinin olmayacağından da üzülməyək. Ramazan təkcə mərhəmət, şəfqət, bağışlanma ayı deyil, həm də bir fürsət ayıdır - sahib olduqlarımızı başqaları ilə paylaşmaq fürsəti. O kəslər ki, iftar süfrələri təşkil edirdi, indi bunun əvəzində ehtiyaclı insanlara, haqq sahiblərinə - şəhid ailələrinə, qazilərimizə yardım etsinlər, sovqat aparsınlar. İftar süfrələrini Allahın verdiyi ruzi və neməti paylaşmaqla əvəz etsinlər. Orucluqda iftar süfrələri açmağı niyyət etmiş şəxslərin bunun əvəzinə kiməsə, ehtiyaclı birisinə yardım etməsi, həmin vəsaitin imkansız və ehtiyacı olan insanlara xeyriyyə məqsədi ilə sərf etməsi, kimsəsiz insanlara, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində kömək göstərməsi Allah nəzərində bəyənilən, daha məqbul və savabdır, orucun fəlsəfəsinə uyğundur, çox bəyənilən və İlahi dərgahda qəbul olunan əməldir.

Şərqşünas oruc tutan şəxsləri geniş iftar süfrələrinin təşkilindən çəkinməyə çağırdı:

- İftar süfrələri təşkil edib xəstəliyin yayılmasına, başqalarının virusa yoluxmasına, sağlıqlarının təhlükə altına düşməsinə səbəb olmamalıyıq. Çünki can bəndəyə Allahın əmanətidir. Ona qəsd etmək günahdır. Allah rizasını qazanmaq üçün bizə növbəti bir fürsət verilir, inanıram ki, inanclı insanlarımız bu fürsəti lazımınca qiymətləndirəcək.

**S.C.Əzimbəyli hazırda xəstəliklə mübarizə aparan vətəndaşlara Allahdan şəfa dilədi və onlara oruc ibadətini yerinə yetirə bilmədiklərinə görə narahat olmamağı məsləhət gördü:**

- Burada narahatlığa əsas yoxdur. Orucluq ibadəti yardımlaşmanı artıran, daxili dəyanəti gücləndirən, insan səhhətinə müsbət təsir göstərən ilahi qüvvəyə malikdir. Lakin oruc saxlamağı hökm edən Mərhəmətli və Rəhim Allah buyurur ki, səfərdə və ya xəstə olan insanların oruclarını başqa vaxtda tutmaları məqsədəuyğundur. Bu şəxslər sağaldıqdan sonra, sağlam halda növbəti Ramazana kimi öz orucluq ibadətlərini tamamlaya bilər. Kimsə narahat olmasın ki, hazırda orucunu saxlaya bilməyəcək. Əsas odur ki, sağalsınlar, sağlam bədənlə sonra oruc qəzalarını tamamlasınlar. Orucun tutulmaması xəstəlik səbəbiylə, yəni qəsdən olmadığı üçün günəgün hesabı ilə tutulacaq. Artıq sayda deyil. Mərhəmətli Rəbbimiz hər bir işdə bəndələri üçün yüngüllük istər.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Yırtıcı heyvanlar mal-qaranı qırır, sahibkar əlacsızdır

## Nə maraqlanan var, nə də kompensasiyanı ödəyən



Yırtıcı heyvanların təsərrüfatlara ziyan vurması hallarına təəssüf ki, rast gəlinir. Əziyyətlə təsərrüfat genişləndirmiş fermerlər, kəndlilər gözlənilmədən elə bir təhlükə ilə üz-üzə qalır ki, çəkdikləri zəhmət hədər gedir.

Bu günlərdə Bərdədə oxşar hal yaşanıb. Bərdə rayonunun Saatlı kəndində, Xəyyam Məmmədova məxsus təsərrüfata canavar sürüsü hücum çəkərək təsərrüfata ziyan vurub. 30-dan çox xırdabuynuzlu heyvan tələf olub. Vəhşi heyvanlar qoyunçuluq təsərrüfatına gecə saatlarında hücum edib. Yerli sakinlər deyir ki, son 10 il ərzində canavarların sürü şəklində kəndə hücum etməsi faktına rast gəlinməyib.

Rayon Baytarlıq İdarəsi və Qida Təhlükəsizliyi Agentliyi tərəfindən təsərrüfata baxış keçirilib. Tələf olmuş heyvanlar baytarlıq xidmətinin əməkdaşları tərəfindən dərmanlanaraq basdırılıb.

Təsərrüfatda quduzluğa qarşı vaksinasiya tədbirləri aparılıb.

Qeyd edək ki, baş verən hadisə zamanı təsərrüfat sahibinə 10 min manata yaxın ziyan deyib.

Canavar Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmiş heyvandır. Onları ovlamaq yasaqdır. Lakin insan həyatına təhlükə varsa, canavarların vurulması məqbul sayılır. Ümumiyyətlə hesab edilir ki, yırtıcı heyvanlar meşədə, aid olduqları ərazilərdə qida tapmadıqlarından insan məskənlərinə gəlir, təsərrüfatlara hücum edirlər. Hazırda bütün dünyada bu hal yaşanır. Və təəssüf ki, bunun günahkarı da insanlardır. İnsanlar tərəfindən təbiətin məhv edilməsi, təbii flora və faunanın pozulması, heyvanlar aləminin qida tapmamasına, aclıq çəkməsinmə gətirib çıxarıb. Onlar da qidalanmaq üçün yaşayış məskənlərinə gəlir, qida axtarırlar. Belə vəziyyətdə yırtıcıların insanlara hücum çəkməsi də gözləniləndir.

"Aqrar sektorda risklər yüksək olduğu üçün sığorta şirkətləri bu sahəyə maraqlı deyil"

**Digər bir məsələ isə təsərrüfatlara dəymiş ziyana görə fermerlərə kompensasiya ödənməsi, dəymiş ziyanın qarşılanmasıdır. Bu məsələdə də vəziyyət ürəkaçan deyil. İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında qeyd etdi ki, ölkədə ən zəif sığorta aqrar sığortadır:**

- Azərbaycanda ən zəif sığorta aqrar sığorta növüdür. Aqrar sektorda risklər yüksək olduğu üçün sığorta şirkətləri bu sahəyə maraqlı deyil. Bir müddət əvvəl dövlət tərəfindən aqrar sektorda sığortanın 50 faizinin ödəniləcəyi bildirilmişdi. Qalırdı, digər 50 faizin ödənməsi məsələsi, lakin nə sığorta şirkətləri, nə də fermerlər heç bu 50 faizə də razı olmadılar. Çünki hətta sığortanın 50 faiz ödənməsi də onlara sərf etmirdi. Aqrar sektorda sığorta bazarı çox kiçikdir və bunda maraqlı olan da yoxdur. Fermerlərə dəymiş ziyanın ödənməsi yerli icra hakimiyyətləri təmin edə bilər. Bunun üçün onların özü təşəbbüs göstərməlidir. İcra hakimiyyətləri daxili imkanlar hesabına dəymiş ziyanın ödənməsini təmin edə bilərlər. Lakin bunu etmirlər. İş qalır Kənd Təsərrüfatı Nazirliyinin öhdəsinə. Bəlkə nazirlik fermerlərə dəymiş ziyanı müəyyən qədər qarşılaya bilər. Hər halda fermerlər sığorta ilə bağlı vəziyyətdən xəbərdardır. Çalışmalıdırlar ki, öz gücləri hesabına təsərrüfatlarını qorusunlar. Riskləri minimuma endirsinlər.

**Məlahət Rzayeva**

# Mental dəyərlərimiz bizi məyus duruma salır

Pediatr: "Maska taxın" deyən həkimləri söyürlər, "taxmayın" deyənləri də ”



**Pediatr Vaqif Qarayev açıq havada tibbi maskalardan istifadə etməməklə bağlı fikirlərini açıqlayıb.**

Sosial şəbəkə üzərindən etdiyi paylaşımda həkim bu məsələdə mental dəyərlərimizin bizi məyus duruma düşürəcəyinə diqqət çəkib:

- Qırğındı.... Maska qırğını..."Maska taxın" deyən həkimləri söyürlər, "taxmayın" deyənləri də "Fatı məsələsi" "Taxmayaq" deyənlər qorunmaq üçün heç bir alternativ səsləndirmir. Mən də düşünürəm ki, açıq havada insanların seyrək olduğu məkanlarda maska taxmamaq olar. Amma biz qaynarqanlı millətik. Küçədə bir tanışımızı görən kimi mütləq qucaqlaşıb öpüşürük. Ortalama 10-15 dəqiqə hal-əhval tuturuq. Faydası oldumu, maskalı-maskasız gəzməyin?! Olmadı! Deməli, fərdi və sosial məsuliyyət çox vacibdi. Hər kəs özünü qorumağı bacarmalıdı!

Peyvəndə də lağlağı yanaşırıq. Virusa qalib gəlmiş ədası ilə. Düzgün deyil!

**Məlahət**

# Həkim TƏBİB-i səhv çıxardı

*"Restoran, kafe və çay evlərində saatlarla maskasız otururlar, amma çölə çıxanda maska taxırlar. Bu, məntiqsiz görünür"*




**Sosial şəbəkə istifadəçiləri "#nəfəsalaq" həştəqi ilə kampaniya başladıb. Kampaniyaya qatılanların sayı gün keçdikcə artır. Hətta bəzi məşhur şəxslər də prosesə qoşulublar.**

Vətəndaşlar TƏBİB-dən park və küçələrdə, açıq məkanlarda və insanların az olduğu yerlərdə maskadan istifadə qaydasının ləğv olunmasını xahiş ediblər. Məsələ ilə bağlı TƏBİB-ə sorğu göndərilib.

**Kampaniyaya dair fikirlərini "Şərq"lə bölüşən tibb elmləri doktoru, professor-həkim Adil Qeybulla deyib ki, maska taxmaq bizim iradəmizlə ölçülmür. Bu, karantin qaydalarıdır:**

"Lakin bir məsələ var: insanların düşüncələrinə hörmət etmək lazımdır. Çünki Bakıda insanlar kifayət qədər geniş olan iaşə müəssisələrində, restoran, kafe və çay evlərində saatlarla maskasız otururlar. Amma çölə çıxanda maska taxırlar. Bu, məntiqsiz görünür. Ona görə də həmin məsələ hansısa formada korrektə olunmalıdır. Bu baxımdan vətəndaşların etirazını və kampaniya başlatmaqlarını məntiqli hesab edirəm. Ümumiyyətlə isə indiki dövrdə karantin qaydalarının necə olacağını epidemioloji vəziyyət diktə edir, insanların arzusu yox".

**Yeganə**

# Bakıda atəş səsləri eşidilir

## Cinayət varsa, cəzası da olacaq

Aprelin 10-da Bakıda silahlı insident baş verib. Hadisə Yeni Yaşamal yaşayış massivində qeydə alınıb. Əsəd Əhmədov küçəsində 99-VH-886 dövlət nişanlı "Chevrolet" markalı avtomobilə atəş açılıb. İdarəetməni itirən sürücü nəqliyyat vasitəsini dərədən aşağı aşırıb. Hadisə yerinə Yasamal Rayon Polis İdarəsi və 29-cu Polis Şöbəsinin əməkdaşları cəlb edilib.

Bakıda dünən gecə saatlarında daha bir atışma baş verib. Hadisə Xəzər rayonu, Mərdəkan qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 22 yaşlı Nurməmməd Səfərov yanında doqquz nəfər tanışı ilə birgə həmyerlisi 64 yaşlı Əli Məmmədovun evinin qarşısına gəlib.

N.Səfərov Ə.Məmmədovu təhqir edərək evindən çıxıb küçəyə gəlməsini istəyib. Ə.Məmmədov isə tüfənglə havaya üç dəfə atəş açıb və bu zaman qırmalardan bir neçəsi N.Səfərova dəyib. N.Səfərov xəsarətlə xəstəxanaya yerləşdirilib, vəziyyəti ağırdır.

Baş verən hər iki hadisədə diqqət çəkən əsas məqamlardan biri adi vətəndaşların silahdan istifadə etməsidir. Əlinə silah alan hər kəs ondan rahatlıqla istifadə edib, təhlükəli durum yaradır. Maraqlıdır, bu cür hallara nəzarət necə olmalıdır?

**Sabiq millət vəkili, hüquq müdafiəçisi Çingiz Qənizadə "Şərq"ə bildirib ki, cəmiyyət var olduqca belə cinayətlərə rast gəlinməsi mümkündür:** "Ölkəmizdə cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədədir. Bu gün Azərbaycan ictimai-siyasi baxımdan ən stabil ölkələrdən biridir. Lakin hər ölkədə olduğu kimi bizdə də belə hallar baş verəcək. Xüsusilə əvvəllər cinayət törətmiş şəxslər tərəfindən belə aqressivlik və cinayətlər tez-tez olurdu. Son iki hadisə ilə bağlı da araşdırma aparılsa, həmin şəxslərin sıradan biri olmadıqları meydana çıxacaq.

Amma baş verənlərdə nəsə axtarmaq lazım deyil. Yəni, "Niyə ölkəmizdə belə hallar yaşanır?", "Nə üçün silahlı atışmalar olub?" kimi sualların bir cavabı var. Bu da cəmiyyətin içində bəzi şəxslərin öz fikirlərini aqressiv formada bildirmələridir. Belə hadisələr hər zaman baş verəcək. Kütləvi hal və hansısa qruplaşamaların iş deyil ki, narahatlıq keçirək. Daxili İşlər Nazirliyi (DİN) və prokurorluq orqanları ciddi mübarizə aparırlar".

*Ç.Qənizadənin qənaətincə, nə qədər ki, əllərdə, kiminsə evində silah var, gec-tez ondan istifadə ediləcək: "Ataların belə bir deyimi var:* "Evdə olan hər hansı bir silah, nə vaxtsa açılacaq". Əlbəttə, silahların olmaması, xüsusilə qadağan edilmiş silah-sursatlardan istifadə yaxşı hal deyil. Amma nəzərə alsaq ki, ölkəmiz son 30 ildə müəyyən proseslər və müharibələrdən keçib, bu baxımdan əllərdə hələ də silahların olması başadüşüləndir. Hesab edirəm ki, cinayət varsa, ona qarşı mübarizə və cəza da var".



"Nə qədər ki, əllərdə, kiminsə evində silah var, gec-tez ondan istifadə ediləcək"

**Sabiq polis rəisi Mahmud Hacıyev isə bildirib ki, keçmişdə belə hallara daha çox rast gəlinirdi:** "1993-1995-ci illərdə bu cür insidentlər çox idi. Çünki o dövrlərdə qaçqınlarımız var idi, insanların böyük əksəriyyəri müharibə dövrü olanda özləri ilə silah gətirmişdilər. Zaman keçdikcə isə dövlət səviyyəsində tədbirlər keçirildi, hüquq-mühafizə orqanları tərəfindən silahların xeyli hissəsi yığıldı.

5-6 ildir ki, mütəmadi olaraq yığılır. Lakin bu cür hallarla yenə qarşılaşmaq mümkündür. İnsanlar olan yerdə belə situasiyalar vaş verə bilər. Hər zaman hiss olunur ki, silah saxlamaq və əldə etmək Qafqaz camaatında var.

Azərbaycan da Qafqazın bir hissəsidir. Ölkəmizdə sayı az olsa da, silahı olan şəxslər var. Hüquq-mühafizə orqanları cinayət olduqda günahkarları ifşa edib, müvafiq cəza tətbiq edirlər".

**Yeganə Bayramova**

# Yeni ofislər yaradıldı



## *Yararsız pul nişanlarını rahatca dəyişmək mümkün olacaq*

Mərkəzi Bank tərəfindən "Tədavüldə təmiz pul siyasəti"nin realizasiyası və pul nişanlarının saxtalaşdırılmasına qarşı mübarizənin gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Mərkəzi Bankdan verilən məlumata görə, bu çərçivədə əhalidə olan yararsız pul nişanlarının qəbul edilməsi, ekspertizası və dəyişdirilməsi, eləcə də nağd pulla bağlı sorğuların və müraciətlərin cavablandırılması məqsədilə Mərkəzi Bankda və onun ərazi idarələrində (Naxçıvan MR İdarəsi, Gəncə, Biləsuvar və Quba Regional Mərkəzləri, Yevlax Ehtiyat Mərkəzi) əhaliyə xidmət ofisləri təşkil edilib. Azərbaycan Mərkəzi Bankı bildirir ki, bankın Bakı şəhəri, Bülbül prospekti 27 ünvanında yerləşən inzibati binasında əhaliyə xidmət üzrə yeni "Nağd pul ofisi" yaradılıb. Vətəndaşlar 13 aprel 2021-ci il tarixindən etibarən həftənin 2-ci və 4-cü günləri saat 10:00-dan 13:00-dək qeyd edilən ünvanda yerləşən əhaliyə xidmət üzrə "Nağd pul ofisi"nə yaxınlaşaraq milli pul nişanlarını ekspertizaya təqdim edə və zədələnmiş pulları dəyişdirə bilər. Əlavə suallarla bağlı Mərkəzi Bankın "Qaynar xətt"inə (966) müraciət oluna bilər.

**İqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında vurğulayıb ki, o, Mərkəzi Bankda və onun ərazi idarələrində əhaliyə xidmət ofisləri təşkil edilməsini müsbət hal kimi dəyərləndirir.** Ekspert qeyd edib ki, Mərkəzi Bankın bunu yalnız regional deyil, hər bir rayon üzrə nümayəndəlik çərçivəsində etməsi daha məqsədəuyğun olardı: "Bildiyiniz kimi, elə hallar olur ki, pul dövriyyəsi zamanı valyuta yararsız hala düşür. Bu, müxtəlif amillərlə bağlı ola bilər. Məsələn, ev yanar və nəticədə evdə olan valyuta korlana bilər. Yaxud da ki, müəyyən bir səbəbə görə valyuta cırıla bilər. Qeyd edim ki, banklar valyutanın 40 faizi yararsız olduqda qəbul edir və ya ümumiyyətlə, belə valyutaları qəbul etməkdə maraqlı olmurlar. Vətəndaş da sonda həmin valyutadan imtina edir".

"Mərkəzi Bankın bunu yalnız regional deyil, hər bir rayon üzrə nümayəndəlik çərçivəsində etməsi daha məqsədəuyğun olardı"

**Ekspert bildirib ki, bir çox hallarda banklar yararsız pulları qəbul etməkdə maraqlı olmurlar:** "Çünki onun Mərkəzi Banka göndərilməsi və s. kimi proseslər vaxt aparır. Yaxud da ki, əgər vəsait azdırsa, onun arxasınca düşülmür. Nəticədə təbii ki, ziyan vətəndaşa dəyir. Bu isə kiçik də olsa müəyyən narazılıqlara səbəb olur. Bəzi vaxtlar bu kimi hallar hakimiyyətin apardığı siyasətin tənqid olunmasına gətirib çıxarır. Bu baxımdan Mərkəzi Bank tərəfindən "Tədavüldə təmiz pul siyasəti"nin realizasiyası və pul nişanlarının saxtalaşdırılmasına qarşı mübarizənin gücləndirilməsi və yararsız pul nişanlarının qəbul edilməsini müsbət hal kimi qiymətləndirirəm. Əslində Mərkəzi Bankın bunu regional deyil, hər bir rayon üzrə nümayəndəlik çərçivəsində etməsi müsbət hala təkan verərdi. Misal olaraq, mən Sabirabadda yaşayıram və əlimdə yararsız bir 10 manatlıq əsginaz var. Bunun üçün mən Biləsuvara getməliyəm. Gedəcəyim vaxt və pul itkisini hesablasaq, 10 manatdan artıq vəsait itirmiş oluram. Və vaxt baxımından da hər hansı işimdən həmin gün üçün imtina etməliyəm. Amma Sabirabadın özündə bir nümayəndəlik olsa, o zaman mən hətta 1 manata görə 5 dəqiqəmi ayırıb gedərdim həmin yerə. Bu baxımdan nə vəsait itirərdim, nə də ki günümü. Hesab edirəm ki, Mərkəzi Bank əhatə dairəsini ofislər baxımından genişləndirməlidir. Düzdür, sual oluna bilər ki, buna əlavə xərclər lazımdır, işçi və sair. Amma görülən işin yanında bu, xırda bir hissəcikdir və Mərkəzi Bank buna görə zərərə düşməz".

**Aynurə Pənahqızı**

## Əvvəl psixoloji diaqnostika aparılmalıdır

### Məişət zorakılığı ilə bağlı mühafizə orderinin verilməsi müsbət addımdır



**Son zamanlar əri tərəfindən zorakılığa məruz qalan, hətta qətlə yetirilən qadınlar haqqında tez-tez xəbərlər eşidirik.**

Qanuna bu insanları qorumaq üçün mühafizə orderi daxil edilsə də, statistik rəqəmlərə görə, onun üstünlüklərindən xəbəri olanların sayı çox azdır. Qeyd edək ki, mart ayı ərzində Ədliyyə Nazirliyinin İcra xidmətinin icraatında məişət zorakılığı ilə bağlı ümumi 13 icra sənədi olub. Nazirlikdən bildirilib ki, onların biri uzun, on ikisi isə qısamüddətli mühafizə orderləridir. 2010-cu ildə qəbul edilən "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun Mühafizə Orderi adlı bəndi var. Bir çoxlarının məlumatı olmasa da həyat yoldaşı, övladları və yaxınları tərəfindən zorakılığa məruz qalan hər bir şəxs, qanunun ona tanıdığı üstünlükdən yararlana bilər. Amma bu mühafizə orderləri insanları təhlükədən nə dərəcədə qoruya bilir?

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən psixoloq Fərqanə Mehmanqızı deyib ki, mühafizə orderinin verilməsi müsbət addımdır. Psixoloq qeyd edib ki, bunun psixoloji cəhətdən ağır təhlükəsi də ola bilər:** "Bildiyimiz kimi, insanlarda bir çox psixoloji travmalar var. Habelə, hər bir insan individualdır və baş verən hadisələrə fərqli yanaşma sərgiləyir. Hesab edirəm ki, ilk olaraq məişət problemlərində insanlar arasında psixoloji diaqnostika aparılmalı və onlar psixoloji baxışdan keçməlidirlər. Çünki bəzən insanlar order məsələsindən sui-istifadəyə yol verə bilər. Fərqli yanaşmalar sərgiləyə bilərlər. Ona görə də hesab edirəm ki, insanların ilk olaraq psixoloji durumlarının yoxlanılması zəruri və labüddür".

**Aynurə**



## Velosipedlə yolu keçmək istədi

### Şəkiyə qonaq gedən yeniyetməni avtomobil vurub öldürdü

**Şəki rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.**

"Report"un Şimal-qərb bürosunun məlumatına görə, hadisə Yevlax-Zaqatala-Gürcüstan magistral yolunun rayonun Böyük Dəhnə kəndi ərazisindən keçən hissəsində qeydə alınıb.

Belə ki, Əsəbəli Tütünçiyev idarə etdiyi "Mercedes"markalı avtomobillə hərəkətdə olarkən, velosipedlə yolu keçmək istəyən Böyük Dəhnə kənd sakini, 11-ci sinif şagirdi Məhəmməd Namazovu vurub. Yaralı xəstəxanaya çatdırılarkən yolda keçinib.

Kənd sakinlərinin sözlərinə görə, qəzada dünyasını dəyişən M.Namazov Bakı şəhərində yaşayırdı. O, kəndə iki günlük gəlib.

# Dərdli işsizlər...

## *Pandemiya turizm və xidmət sektorunu çökdürüb*



Elə sahələr var ki, vəziyyət normallaşandan sonra da özünə gələ bilməyəcək

Pandemiya həm dünyada, həm də ölkəmizdə iqtisadiyyatın bir çox sahələrinə ağır təsir edib. Bu müddətdə bəzi sahələr özünü qismən bərpa etsə də, elə sektorlar var ki, ya uzun vaxt toparlana bilməyəcək, ya da mövcud vəziyyət səbəbilə tamamən çöküb sıradan çıxacaq.

**Koronovirus pandemiyasının iqtisadiyyata təsirindən danışan iqtisadçı-ekspert Fuad İbrahimov "Şərq"ə bildirib ki, bu müddət ərzində ən çox zərərçəkən sahələr turizm və xidmət sektorudur:** "Pandemiya ilk növbədə turizm və xidmət sektorunu tamamilə məhv etdi. Xidmət sektorunun bir çox qolları, restoranlar, otellər və s. bu qəbildən olan digər sahələr mövcud vəziyyətin təsiri nəticəsində strukturunu dəyişib. Bu sahələrə birmənalı olaraq ziyan vurulub. Elə sahələr var ki, birtəhər də olsa ayaqda qala bilib. Buna misal olaraq xidmət sektorunda fəaliyyət göstərən saç ustalarını göstərmək olar. Onlar şəxsi zənglə belə karantin vaxtında öz işini görmüş oldu. Lakin elə sektorlar da var ki, məsələn, turizm, restoran biznesi və bunlar kimi bir sıra sahələr demək olar ki, tamamilə iflic vəziyyətinə düşüb. Turizm sektorunun nəzdində dəniz səyahəti turizmi var ki, pandemiya dövründə bu sahə ümumiyyətlə çöküb. Bu sahə elədir ki, gəmilər daim hərəkətdə olmalıdır. Onların bir gün dayanması texniki cəhətdən idarə olunmasında kifayət qədər çətinliklər yaradır. Beləliklə, bir çox sahələrə köklü ziyan dəydiyinin şahidi oluruq".

**Ekspert toy sahəsinə dəymiş zərərdən də danışıb. O qeyd edib ki, pandemiyanın bu cəhətdən gələcək nəsil üçün bəzi xeyirləri də oldu:** "Bu vəziyyətin ziyan vurduğu sahələrdən olan toy bazarı ümumiyyətlə aradan çıxıb. İnanmıram ki, bundan sonra əvvəlki kimi həmin sahədə aktivlik müşahidə olunsun. Birinci növbədə artıq insanların da bu məsələyə yanaşması dəyişib. Biz artıq toy biznesinə başqa müstəvidən baxırıq. Bu işlərin təşkilində çox sayda israfçılığa yol verilirdi. Toyu başlamamış gənc ailə borc içində qalırdı. Bunlar günün tələbinə uyğun xidmətlər olsa da, insanlar artıq anladı ki, həmin xidmətlər olmadan da yaşamaq mümkündür. Düşünürəm ki, gələcək zamanlarda ən azından bu israfçılıqlar aradan qalxacaq. Eyni zamanda arzulayıram ki, toy sektorunda çalışan şəxslər hər hansısa işlə təmin olunsun. Amma elə işlərdə çalışsınlar ki, bu, başqalarına zərər vurmasın".

**Aytac Ali**

# Röya Natəvanı itirmək istəmir



*“Çünki yaşımız keçir və yaraşmır, indi bizim oturub dərdləşmək vaxtımızdır”*

"Çox çılğındır, elə bil hələ də uşaqdır. Məndən yaşca böyükdür, amma ürəyi çox balacadır.

Allah onun qəlbinə sevgi, mərhəmət bəxş etsin. Küsüb-inciməkləri yığışdırsın. Belə hara gedib çıxacaq? Çox gözəl həyatı, sağlam övladı var. Ona görə yaşamağa dəyər. Problem varsa, başqalarında axtarmasın, bir yerdə çözək”.

**”Şərq” xəbər verir ki, bu sözləri ”Atv-Onlarla” verilişinin ”33 sual” rubrikasında müğənni Röya Ayxan həmkarı Natəvan Həbibi haqqında söyləyib.**

O, Natəvanın ”Məni pula satdılar. Mahnı oğurluğu aşkar elədim” açıqlamasına da münasibət bildirib: ”Bir oğlan mahnı göndərdi, ona ödəniş etdim. Ardınca İstanbula yola düşdüm. 6 ay sonra dedilər, oğlan söyləyir ki, mahnını oxumursa, başqasına verə bilərəm? Dedim, axı pul vermişəm. Həmin şəxs zəng etdi ki, səhv eləmişəm, mahnını eyni anda həm Natəvan Həbibiyə, həm də sizə vermişəm. Söylədim ki, onda Natəvan oxusun. Lakin mahnının pulunu mən ödəmişəm. Belə söhbətlərə görə dost itirmərəm.

Aramızdakı soyuqluğun səbəbi bu kimi məsələlərdirsə, olmasın. Çünki yaşımız keçir və bizə yaraşmır. İndi bizim oturub dərdləşmək vaxtımızdır”.

**Samirə Ərəblinski**



## Vüqar Muradov atasına haqqını halal etmir

“Onun kimi ata olmayacam. Əgər elə olacamsa, Allah atalığı qismət eləməsin”

**Müğənni Vüqar Muradov ”Bazar düzü” verilişində qonaq olarkən ailə məsələləri haqda danışıb.**

**”Şərq” xəbər verir ki, ifaçı atasından bəhs edib:** ”Atam dünya gözəli insandır, ona canım da qurban. Amma kommunist fikirli adamdır. O, sevgisini öz içində yaşadır, düşünür ki, uşağa həmişə qışqırılmalıdır. Başıma sığal çəkib oğlum dediyi olmayıb. Ona görə travmalıyam. Onun kimi ata olmayacam. Heç arzulamıram da. Əgər elə olacamsa, Allah atalığı qismət eləməsin. Ətrafımda atam kimi valideynləri görəndə əsəbiləşirəm, aqressiyamı göstərirəm. Sanki atam fikirləşib ki, uşağın başına sığal çəksəm, pis olacaq. Əksinə, həmişə ətrafımızdakı insanlardan misal gətirirdim ki, filankəs dayı oğluna, ”balam”, ”oğlum” deyə səslənir. Yəni bu qədərmi çətindir balam demək? Mənim həyatda nəyəsə ehtiyacım olmayıb, bu qayğıdan başqa. İndi 68 yaşı var. Hələ də ətəyindən daşı atmayıb. Atmırsan, atma. Mən də atama haqqımı halal etmirəm”.

**Samirə**

# “Kişiyə yaraşmayan hərəkət etdi”

"Sənətə gələndə evli idim. Çox nadir hallarda açdığım mövzudur. Bu, həyatımın maraqlı və kədərli bir səhifəsidir. Kədərli ona görə ki, ailə həyatımı başqa cür təsəvvür edirdim. Deyirdim ki, sevmişəm, evlənirik və bu, belə olacaq.



*Tünzalə Ağayeva keçmiş ərindən ilk dəfə danışdı*

Hər çətinliyin bir səbəbi, altında xeyir var. Əsasən qadınlar danışır ki, gözəlliyim, uğurum, səhnədəki duruşumu heç kim gətirib verməyəcək ki, yaşa. Artist bilirsiz kimdir? Səhnədə böyük alqışları birdən alan, qucağında böyük gül dəstəsi ilə evə gəlib, hündürdabanı soyunan, səhnə libası ilə içdən ağlayandır”.

**Bu sözləri Xalq artisti Tünzalə Ağayeva stilist Anar Ağakişiyevin ”Dəyişən cavab” layihəsində deyib. Müğənni keçmiş həyat yoldaşı Rəhman Əliyevdən danışıb. İfaçı ilk dəfə ayrılıq səbəbini açıqlayıb:**

”Onun dəstəyini heç vaxt dana, haqqını tapdalaya bilmərəm. Mən yaxşı idim, o pis deyə bilmərəm. Hər birimizin xətası var. Yeddi il birlikdə olmuşuq. Bir müddət sonra iki insan tutuşmursa, o demək deyil, biri yaxşı, digəri pisdir. Birinin beyni qabağa gedir, digəri yerində qalıb. Məndə belə oldu. Çox xırda məsələləri problem edirdik. O zaman qızım Fidanın iki yaşı var idi. Bu mübahisələrimizə qızımın şahid olmağını istəmirdim. Səhnədə gülüb, gəlib evdə ağlamaq olmazdı. İki-üç il belə həyat tərzi yaşadım. 2001-2004-cü illərdə efirə çıxırdım, ”hər şey gözəldir” deyirdim. Efirdə ağlamağı bacarmıram.

Valideynlərim çox kədərlənirdi ki, övladımın ailəsi dağılır. Bir tərəfdə uğur var idi. Həmin illərdə şər və xeyri eyni anda yaşadım. Albomlarım uğur qazanırdı. O illərdə Tünzalə Ağayeva ulduzunun parlamasını hiss etmədim. Daxilimdə faciə yaşayırdım. O, övladının anası, ömür-gün yoldaşı Tünzalənin şəxsiyyətinə hörmətsiz yanaşdı. Bax, həmin anda ondan tamamilə qırıldım. Çox ehtiyatsız, kişiyə yaraşmayan bir hərəkət etdi. ”Mənlə yaşamırdısa, həyat məhv olmalıdı” deyə, düşünürdü. Mənim haqqımda mediada xəbərlər yazdırırdı, onlara pul verirdi, imicimə xələl gətirmək istəyirdi”.

## Xalq artisti koronavirusa yoluxdu

Konservatoriyada dərslər dayandırıldı



**Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi koronavirusa (COVİD-19) yoluxub.**

APA xəbər verir ki, bu haqda konservatoriyanın mətbuat xidmətinin rəhbəri Anar Bəylərov məlumat verib. O, S.Kəriminin testinin nəticəsinin pozitiv çıxdığını deyib:

**”Hazırda səhhəti yaxşıdır, ev şəraitində müalicə alır”.**

*Qeyd edək ki, pandemiya ilə əlaqədar Azərbaycan Milli Konservatoriyasında əyani dərslər bu gündən dayandırılıb.*

## Rəqsanə düzgün danışmır

Murad Sadiq sərt reaksiya verdi



**Rusiyada yaşayan müğənni Rəqsanə İsmayılovanın qalmaqallı açıqlaması müzakirələrə səbəb olub.**

Rəqsanə instaqram səhifəsində bu sözləri yazıb: ”Bəzi dırnaqarası müğənnilər, musiqiçilər Rusiyanı gəlib elə günə qoyublar ki, adam əlinə mikrofon almağa utanır”.

**”Şərq”in məlumatına görə, müğənninin fikirlərinə həmkarı Murad Sadiq sərt reaksiya verib. O, Rəqsanə ilə razılaşmadığını söyləyib:** ”Nə isə deyəndə fikirləşib danışmalıdır. Xoşuma gəlmədi, deyir ki, toydan sonra gedib, evinizdə yatın. O nə deməkdir?! Harada yatırlar ki? Çörək pulu qazanırlar da. Söyləyir ki, onların əlindən əlimə mikrofon almağa utanıram. Niyə utanırsan ki? Tədbirdən sonra evə gedin deməsi ümumiyyətlə məqsədəuyğun deyil. Mən subyektiv fikrimi bildirirəm. Belə danışmaq olmaz. Onlar sənətçidirlər, pul qazanırlar. Pis, ya yaxşı oxuyurlar, qarışmıram. Lakin Rəqsanə düzgün danışmır”.

**Samirə**

## "Çöldə-bayırda nə baş verir, bilmirəm"

Elnarə Abdullayeva: “Təyyarəyə minib Rusiyaya gəlmişəm, toyda ifa edib qayıtmışam”



**İki gündür ki, müğənni Rəqsanə İsmayılovanın Rusiyaya üz tutan həmkarlarını tənqid etməsi müzakirə olunur.**

Onun fikirləri istər sosial şəbəkə istifadəçiləri, istərsə də sənət adamları tərəfindən birmənalı qarşılanmır. Rəqsanəni dəstəkləyənlərlə yanaşı, sərt tənqid edənlər də var. Bir də cəmiyyətdə sual yaranıb: ”Rusiyadakı vəziyyət necədir ki, Rəqsanə əlinə mikrofon almağa belə utanır?”. **Qonşu ölkəyə yola düşənlər sırasında olan xanəndə, Əməkdar artist Elnarə Abdullayeva ”Şərq”ə danışıb. O, canlı yayım açaraq açıqlamalar verəcəyini söyləyib:** ”Amma kiminsə yanında olmamışam. Bir-iki toyum var idi, orda oxumuşam. Xırda-mırda adına konsert deyilən ”konsertçik”lərdən və burdakı ab-havadan xəbərim yoxdur. Təyyarəyə minib Rusiyaya gəlmişəm, toyda ifa edib qayıtmışam. Çöldə-bayırda nə baş verir, bilmirəm. Müəyyən məsələlər var, onlar haqqında danışacam”.

**Samirə**

# Böyük köç başlayıb



Şəhərdəki sıxlıqda virusa yoluxma riskinin daha yüksək olduğunu anlayanlar təhlükədən yaxa qurtarmağa çalışır və çarəni boş ərazilərdə məskunlaşmaqda, təbiət qoynuna qaçmaqda görür.

*“Koronavirus”dan qaçanlar evlərini yük maşınlarında daşıyır*

”Şərq” türk mediasına istinadən xəbər verir ki, İstanbulun təbii gözəllikləri ilə məşhur Şilə bölgəsinə hazırda ”böyük köç” dalğası yaşanır. Vəziyyətin getdikcə kritikləşdiyini görən yerli bələdiyyə məskunlaşmaya son qoymaq və bölgəyə konteynerlərlə ev daşıyanların önünü kəsmək qərarına gəlib.

Pandemiyanın sürət aldığı son 1 il içində Şilə bölgəsində meşəlik ərazilərdə, hətta əkin sahələrində də konteyner evlərin sayı durmadan artır. Bir çoxları yük maşınları ilə tikinti materialları daşıyaraq ”qaçaq evlər” (bildiyimiz ”gecəqondular”) tikməyə cəhd edir.

Yerli bələdiyyə üzvləri yük maşınları daşınan konteyner evlərin sahiblərini cərimələyir. **Şilə bələdiyyə başqanı İlhan Ocaklı bildirib ki, dənizi və meşəlik əraziləri ilə son zamanlar bölgə cazibə mərkəzinə çevrilib. Lakin qaçaq tikililərin inşasına imkan verməmək olmaz.** Fürsətcillərə heç vaxt icazə verilməyəcək. Bələdiyyə başqanı qaçaq evlərin peyk vasitəsilə çəkilən fotolar və dronlar vasitəsilə müəyyənləşdirildiyini deyib. Belə evlər möhürlənir, həm də bölgəyə yük maşınları və TIR-larla gətirildiyində yaxalanıb, geri qaytarılır. Qaçaq evlərin sahibi bələdiyyənin ”sökün” əmrinə tabe olmadıqda evlər bələdiyyə tərəfindən sökülür.

**Məlahət Rzayeva**

## Xəzinə tapdığını sandı

Həyatının şokunu yaşadı



**Evinin bağçasında torpağa basdırılmış xəzinə tapdığını zənn etdi, gerçək ortaya çıxdıqda şok oldu.**

”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, hadisə Kanadada yaşanıb. Toni Huisman evinin arxa bağçasında qazıntı işləri aparırmış, birdən əlindəki belin ucu möhkəm bir əşyaya dəydiyini hiss edib. Toni əvvəlcə maraqla həmin yeri qazmağa başlayıb.

Bərk əşyanın üzərinin betonla örtülü qutu olduğunu gördükdə, marağı daha da artıb, hətta xoş xəyallara qapılaraq bağçada xəzinə basdırıldığını düşünüb. Və daha böyük əzmlə yeri qazaraq beton qutunu çıxarmağa çalışıb. Toni yeri qazmasını telefonla videoya çəkərək canlı-canlı sosial şəbəkədə paylaşmağa başlayıb. Lakin xəzinə deyə üzə çıxarmağa çalışdığı beton qutunun əslində nə olduğunu görəndə dəhşətdən gözləri böyüyüb, şoka düşüb.

Oni ağız-burnunu tez qapayaraq dəhşət içində geri çəkilib. Demə, evin əvvəlki sahibləri arxa bağçada yerə kanalizasiya tullantıları üçün depo basdırıbmış. Bu, müxtəlif həcmə malik, daşına bilən kanalizasiya depolarıdır. Bu depolar xüsusi materialdan hazırlanır, uzun illər torpaqda qalır, həcminə və kanalizasiya tullantılarını saxlama müddətinə görə, bir neçə ildən sonra yerdən çıxarılaraq içinin boşaldılması üçün müvafiq bir yerə daşınırlar. Toni Huismanın TikTok-da paylaşdığı görüntülərə rəylər sel kimi axıb. Video sosial mediada 7 milyondan çox izlənib.

**Məlahət**

## Sirri ortaya çıxdı

Bill Geyts sərvətini əkin sahələrinə yatırdır

*(Əvvəli səh: 16-da)*



**”Land Report”un əldə etdiyi məlumata görə, Geytsin sahib olduğu ərazilərin cəmi sahə 242.000 akreyə (təxminən 980 kvadrat kilometr və ya 98.000 hektar) çatır.**

”İngilis Telegraph” qəzeti Geytsin sahib olduğu əkinçilik ərazilərinin böyüklüyünün İngiltərə Kraliçası 2-çi Elizabetə aid əkinçilik torpaqlarından belə çox olduğunu vurğulayır. Bir texnologiya milyarderi olan Geytsin əkinçilik ərazilərinə bu qədər böyük sərmayələr etməsinin altında nə yatır? Seattledə doğulub böyüyən, hələ də də orada yaşayan Geytsin satın aldığı ərazilərə nəzər yetirəndə ABŞ-ın 19 əyalətinə yayılmış olduğunu görmək mümkündür. Xüsusilə də Luizana, Arkansas, Arizona kimi əyalətlərdə məhsuldar torpaqları satın alan Geyts bu sərmayələri 25 illik bir maliyyə strategiyasının məhsulları olaraq görür.

**Turan**

**Elan**

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinə məxsus 1072 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

## "Nar" paytaxt və regionlarda yenilənmiş xidmət mərkəzlərini təqdim edir




Müştərilərin ehtiyaclarını qarşılamaqla keyfiyyətli xidmətlər təklif edən "Nar" satış və xidmət mərkəzlərini yeniləməyə davam edir. Mükəmməl müştəri təcrübəsi təqdim etmək məqsədilə mobil operator Fəvvarələr meydanı, "Elmlər Akademiyası", "Sahil", "Əhmədli" metrostansiyaları yaxınlığındakı, eləcə də Lənkəran, Şəki, Quba da daxil olmaqla 22 "Nar" xidmət mərkəzini tamamilə yeni konsepsiyada müştərilərin ixtiyarına verib.

”Nar” mərkəzlərdə rəqəmsal panellər quraşdıraraq ziyarətçilərin müasir üslubda məlumat və xidmət almasını təmin edir. Mağazalarda nömrələrin üzərində əməliyyatların aparılması, satışı da daxil olmaqla, müxtəlif növ xidmətlər təqdim edilir. Bundan başqa, yenilənmiş ”Nar” mağazalarında mobil telefonların, cihazların və müxtəlif aksesuarların nağd və ya kredit ilə satışı da həyata keçirilir. ”Azerfon”un Baş İcraçı direktoru Qunnar Pankenin sözlərinə görə, şirkətin müştəriyönümlü strategiyasının bir hissəsi kimi ”Nar” həm Bakı, həm də bölgələrdə bütün satış və xidmət mərkəzlərini yeniləməyi hədəfləyib: ”Pərakəndə satış kanallarımızın yenilənməsi layihəsinin ən vacib mərhələlərindən birini yekunlaşdırdıq, paytaxt və regionlar üzrə 22 ”Nar” xidmət mərkəzini tamamilə yeni konsepsiyada müştərilərimizin ixtiyarına verdik. Artıq yenilənmiş mağazalarımızda satış və xidmətlər vahid məkanda təqdim edilir. Müştərilərimizə daha yaxın olmaqla, məlumat və xidmətlərin daha rahat əldə edilməsini təmin edirik. Yenilənmiş mağazalar ”Nar” brendinin müştəri yönümlü yanaşmasının daha da gücləndirilməsinə və müştərilərin mağaza təcrübəsinin mükəmməlləşdirilməsinə xidmət edir”.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “**Şərq**”in kompyuter mərkəzində yığılır, səhifələnir və “**Azərbaycan**” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, “**Azərbaycan**” nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 636

# 3 metrlik timsah...

## Dayanacaqda qorxulu anlar yaşanıb



**ABŞ-ın Florida ştatındakı yaşayış binasının avtomobil dayanacağında tutulan nəhəng timsah mənzil sakinlərinə qorxu dolu anlar yaşadıb.**

Timsahı ələ keçirmək üçün hadisə yerinə Florida Balıq və Yırtıcı Həyat səlahiyyətliləri və polis çağırılıb.

"Şərq" "Milliyet.com"a istinadən xəbər birir ki, komanda timsahın ağzını bağlayaraq nəzarət altına alıb.

Səlahiyyətli şəxslər timsahların cütləşmə müddətinə diqqət çəkərək mümkün təhlükələrə qarşı bir sıra xəbərdarlıqlar ediblər.

Timsahların cütləşmə dövründə döyüşkən ola biləcəyini qeyd edən səlahiyyətlilər, ev heyvanları sahiblərini heyvanları suyun kənarından uzaq tutmaları mövzusunda xəbərdar ediblər. Daha sonra nəhəng timsah vəhşi təbiətə buraxılıb.

**Yeganə**

# Səhvən hesabına 1,2 milyon köçürülüb

## Dolları qaytarmaq istəmədi, həbs olundu



**Amerikanın Nyu-Orleans şəhərinin sakini səhvən broker hesabına daxil olan 1,2 milyon dolları qaytarmaqdan imtina edib. Bu səbəbdən də həbs olunub.**

Milli.Az xəbər verir ki, bu barədə "Unilad" nəşri xəbər verir. 33 yaşlı Kelyn Spadoni pul oğurlama, bank fırıldaqçılığı və qanunsuz pul köçürmələri ittihamı ilə saxlanılıb.

Onun hesabına 82 dollar əvəzinə 1,2 milyon dollar köçürülüb. Həbsdən sonra Spadoni işindən qovulub.

# Qiymət hər kəsi heyrətləndirib

## Bülent Ersoy 3 milyona razılaşıb



**Tanınmış müğənni Bülent Ersoy tezliklə televiziya vasitəsilə izləyicilərinin qarşısına çıxacaq.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Mustafa Keserlə kamera qarşısına keçəcək Bülent Ersoyun 13 bölüm üçün razılaşdığı qiymət isə hər kəsi heyrətləndirib. Hazırda Bodrumdakı villasının dizayn işləri ilə məşğul olan Ersoyun çəkilişə qatılacağı proqram üçün 3 milyon TL-yə razılaşdığı iddia edilir.

**Aynurə Pənahqızı**

# Aşiq olmaq kökəldir

## 1000 cütlük üzərində araşdırma aparılıb



**İngilislərə məxsus pəhriz portalı "Forza-diet.Com"un 1000 cütlük üzərində apardığı araşdırmaya görə aşiq olmaq çəkini artırır.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, sevgili cütlüklər hər ilə təxminən 2 kilo kökəlirlər. Çəkinin artma mərhələsi, əsasən bal ayından sonra başlayır. Bal ayında çəkisi artanların sayı18 faiz təşkil edir.

Araşdırmaya görə, cütlüklərin 62 faizi bir-birlərinin vərdişinə alışır və birlikdə çəki alırlar. İlin ən çox çəki artıran dövrü Yeni ilə təsadüf edir. 3 ildən sonra bu proses daha da sürətlənir.

Araşdırmanın digər bir nəticəsinə görə isə, birlikdə çəki alan cütlüklərin 56 faizi birlikdə pəhrizə başlayarsa, sürətli şəkildə çəki ata bilərlər.



# Sirri ortaya çıxdı

## Bill Geyts sərvətini əkin sahələrinə yatırdır



**Microsoftun qurucusu Bill Geytsin son bir neçə ildəki sərmayələrini izləyənlər "Nə səbəbə?" sualını soruşmadan keçə bilmir. Yalnız pulunumu hesablayır, yoxsa başqa bir məqsədmi güdür?**

Bill Geytsin adını eşidəndə ağlınıza nə gəlir? Microsoft, Windows, bəlkə bir də son illərdə qlobal istiləşmə və COVİD-19-la əlaqədar şərhləri... Yaxşı, Bill Geytsin hazırda ABŞ-dakı ən böyük əkinçilik ərazisinə sahibi olduğunu bilirdinizmi?

Bu gerçək ABŞ-da nümayiş olunan bir sektor jurnalı - "Land Report" sayəsində ortaya çıxıb.

Jurnalın builki ilk sayında nümayiş olunan bir siyahıyla, 65 yaşlı Geyts ölkədə ən geniş əkinçilik torpaqlarına sahib adam elan edilib. "

*(Davamı səh: 15-də)*

**Turan**

# Meqan getmədi

## Şahzadə Harri Britaniyaya geri dönüb



**Uels Şahzadəsi Harri aprelin 17-də Şahzadə Filipin dəfn mərasimində iştirak etmək üçün dünən Los Ancelesdan Britaniyaya qayıdıb.**

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə "The Sun" nəşri məlumat yayıb. Şahzadə Harrinin Kensinqton sarayına getdiyi deyilir.

Qeyd edək ki, onun hamilə olan həyat yoldaşı Meqan Marklın səyahəti həkimlər tərəfindən tövsiyə edilmədiyi üçün o, mərasimdə iştirak etməyəcək.

*Xatırladaq ki, Şahzadə Filipin yas mərasimi Vindsor Sarayında ictimaiyyətə bağlı keçiriləcək. Hazırda İngiltərədə koronavirus qaydalarına görə, dəfn mərasimlərində ən çox 30 insan iştirak edə bilər. Bundan əlavə, xaricdən gələn qonaqlar 10 gün özlərini təcrid etməlidir. Buna baxmayaraq, Şahzadə Harri xüsusi səbəbə görə dəfndə tədric olunmadan iştirak edə biləcək. Britaniyanın Baş naziri Boris Conson isə dəfn mərasimində mümkün qədər daha çox ailə üzvünün iştirakına imkan yaratmaq üçün mərasimə qatılmayacağını bildirib.*

# Futbolçular məşhur gözəllə məşqə çıxır

## Şmidt yenidən diqqət mərkəzinə düşüb



**Almaniyalı atlet Alisa Şmidt yenidən diqqət mərkəzinə düşüb.**

Yenisabah.az xəbər verir ki, "Busted Coverage" nəşri tərəfindən dünyanın ən seksual idmançısı seçilən 23 yaşlı istedad yenə stadionlardan kənarda fərqlənib.

Alisa instaqramda paylaşdığı şəkillərlə fanatlarının qəlbini oxşayıb. Dortmund "Borussiya"sının məşqlərində futbolçularla hazırlıq keçməsi ilə də diqqət çəkən Şmidt idmandakı uğurları da az deyil.

O, Avropa çempionatlarının ikiqat mükafatçısıdır.

*Alisa 2017-ci ildə 20 yaşadək gənclərin qitə birinciliyində gümüş, üç il sonra U-23-lərin analoji yarışında bürünc əldə edib. Alisa hər iki uğuruna 4x400 m məsafəyə qaçmaqda rəsmiləşdirib.*